YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

12 iyun
2024-cü il,
çərşənbə
№ 104 (6690)
Qiymәti
60 qəpik



Milli azadlıqdan
şirin nemət yoxdur!

# Azərbaycan - Türkiyə: Qardaşlıq, dostluq və müttəfiqlik münasibətləri



Bax səh. 2

## 2015-ci ilin bu günü...

Bax səh. 3

## Regionun lider investoru...

İqtisadi sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində artıq potensial investorlardan birinə çevrilən Azərbaycan üçün indi əsas prioritet istiqamətlərdən biri də elə xarici sərmayə layihələrinin genişlənməsidir. Bu ölkələrin sırasında ilk yeri qardaş Türkiyə tutur. Sonrakı yerlərdə isə əsas tərəfdaş ölkələrdən biri kimi

Gürcüstanı qeyd etmək olar. Gürcüstan Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan transmilli layihələrində fəal iştirak etməklə bərabər, həm də investisiyaların cəlb edilməsi sahəsində tərəfdaşlıqdan əhəmiyyətli dərəcədə faydalanmaqdadır. Bunun nəticəsidir ki, ölkəmizin Gürcüstan iqtisadiyyatına töhfəsi artır, Azərbaycan şirkətləri Gürcüstanda olduqca aktivlik nümayiş etdirərək qonşu dövlətin bir çox sahələrində təmsil olunur.

Qeyd edək ki, 2023-cü ildə...

Bax səh. 3

## Bölgənin inkişafı naminə...



Bax səh. 2

## Azərbaycan Avropaya qaz ixracını artırır

Azərbaycan 2024-cü ilin yanvar-may aylarında Avropaya 5,3 milyard kubmetr təbii qaz ixrac edib. Bu, 2023-cü ilin eyni dövrü ilə müqayisədə Avropaya qaz nəqlinin 0,5 milyard kubmetr və ya 10,4 artması deməkdir. Ümumilikdə isə ötən 5 ay ərzində Azərbaycandan xaricə qaz satışı 10,6 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz çoxdur. Qeyd edilən dövrdə ən ölkəmizdən Türkiyəyə qaz ixracının həcmi 4,1 milyard kubmetr, Gürcüstana 1,2 milyard kubmetr təşkil edib. Hesabat dövründə TANAP-la 2,3 milyard kubmetrə yaxın qaz nəql olunub. Avropanın cənubuna qaz nəqlini təmin edən TAP kəmərinin isə ötürücülük qabiliyyəti ildə 12 milyard kubmetrə çatıb.

Qeyd edək ki, Azərbaycan 2020-ci ilin dekabr ayının son günündə...

Bax səh. 3

## 31 ölkədən 102 QHT...

Almaniyanın Bonn şəhərində keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Yardımçı Qurumunun 60-cı sessiyasında iştirak edən bir sıra QHT-lər Azərbaycanın COP29 ölkəsi kimi bütün maraqlı tərəflərlə dialoq və əməkdaşlığı təşviq edən...

Bax səh. 3

## İnflyasiyanı 2 dəfə azaltmaq hədəfi

Türkiyə hökumətinin ölkənin iqtisadi-sosial inkişafında əsas qayğılardan biri olan yüksək qiymət artımları ilə mübarizəni genişləndirmək üçün əlavə tədbirlərdən istifadə etməyi düşünür. Qardaş ölkənin Mərkəzi Bankının rəhbəri Fatih Karahan bildirib ki, inflyasiya ilə mübarizədə inzibati alətlərdən istifadə ön planda qalacaq. 2024-cü il üçün makroiqtisadi hədəflərlə bağlı açıqlama verən baş bankir bildirib ki, inflyasiya azalana qədər dövlətin müdaxiləsi ilə sərt pul...

Bax səh. 6

## 15 ölkənin 14-dən dəstək...

Yaxın Şərqdə ötən ilin oktyabrından başlayan qanlı toqquşma davam edir. Qəzza zolağında davam edən münaqişənin günahsız qurbanlarının sayı 40 minə yaxınlaşıb. Xüsusilə, bölgədə fələstinli dinc əhali arasında həlak olanların sayı çoxdur. Eyni zamanda, Qəzza zolağında qarşıdurma başlayandan bəri İsrailə 19 mindən çox raket atılıb. Bu barədə İsrail Müdafiə Qüvvələri məlumat yayıb. Onların əksəriyyətinin Qəzza zolağından buraxıldığı, lakin son vaxtlar...

Bax səh. 4

## "Fransada əsl siyasi zəlzələ baş verdi"

Avropa Parlamentinə (AP) seçkilərin başa çatmasından sonra Avropa İttifaqına (Aİ) üzv olan bir çox ölkədə ifrat sağçıların yüksəlişi seçkinin ən diqqət çəkən elementi olub. Ötən bazar günü gecə Avropada seçki marafonu başa çatdığından Aİ-nin 27 üzvü arasında qalib və məğlubların kim olduğu aydınlaşmağa başlayıb. Məsələn, Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen bazar günü etdiyi çıxışda deyib ki, nəticələr onun mənsub olduğu...

Bax səh. 6

## İrəvanda növbədənkənar sessiya baş tutacaq?



Bax səh. 7

## Qərbin sülh "demarşı"...



Bax səh. 5

# Azərbaycan ilə Rusiyanın münasibətlərinin uğurlu və ardıcıl inkişafının etibarlı əsası...

## Rusiya Federasiyasının Prezidenti Zati-aliləri cənab Vladimir Putinə

Hörmətli Vladimir Vladimiroviç.

Sizi və Sizin şəxsinizdə Rusiyanın bütün dost xalqını dövlət bayramı - Rusiya Günü münasibətilə Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Xalqlarımız arasında uzun əsrlər ərzində formalaşmış möhkəm dostluq və mehriban qonşuluq ənənələri Azərbaycan ilə Rusiyanın münasibətlərinin uğurlu və ardıcıl inkişafının etibarlı əsasıdır. Biz strateji müttəfiqlik xarakteri daşıyan Azərbaycan-Rusiya qarşılıqlı fəaliyyətinin əldə olunmuş səviyyəsini yüksək qiymətləndiririk.

Bu gün bizim ikitərəfli gündəliyimizdə əməkdaşlığın demək olar ki, bütün sahələrini əhatə edən və şübhəsiz, həyata keçirilməsinin təkcə ölkələrimizə və xalqlarımıza deyil, həm də bütövlükdə regionun rifahına xidmət edən məsələlərin geniş spektri yer alır.

Əminəm ki, Azərbaycan-Rusiya münasibətləri və dost ölkələrimizin maraqlarına cavab verən çoxplanlı qarşılıqlı fəaliyyət gələcəkdə də yüksələn xətlə səmərəli şəkildə inkişaf edəcək, yeni məzmun və birgə layihələrlə zənginləşəcək.

Hörmətli Vladimir Vladimiroviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və uğurlar, Rusiyanın bütün vətəndaşlarına isə əmin-amanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

# Azərbaycan - Türkiyə: Qardaşlıq, dostluq və müttəfiqlik münasibətləri



Münasibətləri Şuşa Bəyannaməsi ilə rəsmən müttəfiqlik səviyyəsinə yüksələn Azərbaycan-Türkiyə əlaqələrinin dərinləşməsində liderlərin sıx təmasları və apardıqları aktual müzakirələr mühüm rol oynayır. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan mütəmadi qaydada Türkiyəyə və Azərbaycana qarşılıqlı səfərlər edirlər və yaranan çağırışları nəzərə almaqla əməkdaşlıq gündəliyinin konturlarını müəyyənləşdirirlər. Elə bu günlərdə Azərbaycanın dövlət başçısı Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Ankarada işgüzar səfərdə olub.



## Dövlətlərin və cəmiyyətlərin güclü yaxınlaşmaq istəyi

Bəhs olunan səfər çərçivəsində Ankarada Azərbaycan Prezident İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub. Görüşdə dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında qardaşlıq, dostluq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini məmnunluqla vurğuladılar.

Həqiqətən də Azərbaycan-Türkiyə münasibətləri dostluğun, qardaşlığın zirvə nöqtəsi sayılır. Dünya dövlətləri arasında elə bir nümunə yoxdur ki, bu iki ölkə qədər bir-birinə yaxın olsun. Azərbaycan və Türkiyənin qardaşlığı tarixdən gələn ənənələrlə, eyni milli-mənəvi dəyərlərlə, dövlətlərin və liderlərin qətiyyətli siyasi iradələri və cəmiyyətlərin istəyi ilə şərtlənir.

Azərbaycan və Türkiyənin tarixdən gələn dostluğu hazırda yeni bağlarla daha da zənginləşir. Hər iki ölkənin tarixi şəxsiyyətləri Türkiyə və Azərbaycan arasındakı münasibətlərlə bağlı artıq aforizmə çevrilən ifadələr işlədiblər. Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev iki ölkə arasındakı münasibətləri "Bir millət, iki dövlət" fəlsəfəsi ilə ifadə edib. Böyük Atatürk deyirdi: "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir".

Eyni zamanda, Azərbaycanın və Türkiyənin hazırkı liderləri də sarsılmaz dostluğumuza aid dərin məna yükü olan ifadələr işlədiblər. Prezident İlham Əliyev Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin fikirlərini davam etdirərək iki qardaş ölkə arasındakı münasibətləri "Bir yumruq" kimi səciyyələndirib. Prezident Rəcəb Tayyib Ərdoğan isə ölkəmizə xitabən bir qayda olaraq "Can Azərbaycan" ifadəsini işlədir.

Azərbaycan və Türkiyə xoş günlərin, zəfərlərin sevincini həmişə birlikdə bölüşürlər. İki ölkənin və xalqın dostluğu, qardaşlığı həmçinin çətin günlərin sınağından keçərək möhkəmlənib. Qardaş ölkə artıq tarixdə qalan Qarabağ münaqişəsinin davam etdiyi üç onillik ərzində həmişə Azərbaycana dəstək verirdi. Böyük Zəfərimizlə başa çatan 44 günlük müharibədə də qardaş ölkə Azərbaycanın yanında oldu.

Öz növbəsində Azərbaycan da ən çətin vaxtlarında Türkiyəni tək buraxmır. Ötən ilin fevralında qardaş ölkə dəhşətli zəlzələ ilə silkələndi. Azərbaycan bu çətin günlərdə Türkiyəyə ilk yardım əli uzadan ölkə olub. Respublikamız Türkiyədə baş verən zəlzələnin fəsadlarının aradan qaldırılmasında dəstəyini hazırda da davam etdirir.

## Müxtəlif istiqamətləri əhatə edən iqtisadi əməkdaşlıq

Azərbaycanla Türkiyə arasında getdikcə genişlənən iqtisadi əlaqələr çoxvektorlu olması ilə səciyyələnir. Təsadüfi deyildir ki, bəhs olunan görüşdə ölkələrimiz arasında enerji, nəqliyyat, iqtisadiyyat, ticarət əlaqələrinin genişləndirilməsi, müdafiə, hərbi sənaye və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub.

Azərbaycan və Türkiyə yaxın perspektivdə qarşılıqlı ticarət dövriyyəsinin həcmini 15 milyard dollar səviyyəsinə çatdırmaqla bağlı hədəf müəyyənləşdiriblər. Artım dinamikası təsdiqləyir ki, bu hədəf tam realdır. 2023-cü il ərzində Azərbaycanın Türkiyə ilə ticarət dövriyyəsinin ümumi həcmi 2022-ci ilə nisbətdə 31 faiz və ya 1,8 milyard ABŞ dolları artaraq 7,65 milyard dolları üstələyib. Ötən il Azərbaycandan Türkiyəyə 5,3 milyard dollar dəyərində məhsul ixrac edilib ki, bu da 2022-ci ilin göstəricisindən 51,2 faiz və ya 1,81 milyard dollar çoxdur. Türkiyədən Azərbaycana idxal edilən məhsulların dəyəri isə 2,29 milyard dollar təşkil edib.

İnvestisiya qoyuluşundakı yüksək dinamika da məmnunluq doğurur. İndiyə qədər Azərbaycan Türkiyə iqtisadiyyatına təxminən 20 milyard, Türkiyə isə Azərbaycan iqtisadiyyatına 15 milyard ABŞ dolları investisiya qoyub. Hazırda Türkiyədə 2 000-ə yaxın Azərbaycan, Azərbaycanda isə 4 100-dən çox Türkiyə şirkəti fəaliyyət göstərir

İki qardaş ölkə enerji və nəqliyyat-logistika sahələrində əməkdaşlığın nadir nümunələrini yaradıblar. İndiyədək Azərbaycanın və Türkiyənin tərəfdaş dövlətlərlə birgə reallaşdırdıqları nəqliyyat və enerji layihələri böyük regional və qlobal əhəmiyyətə malikdir. Görüşdə Bakı-Tbilisi-Qars dəmir yolunun imkanlarının genişləndirilməsi xüsusilə qeyd edilib, Orta Dəhlizin inkişafı ilə əlaqədar iki ölkənin birgə həyata keçirdiyi fəaliyyətin önəmi vurğulanıb.

## TDT-də uzlaşdırılmış fəaliyyətlər

Dünyada Türk birliyi böyük coğrafiya, zəngin resurslar, müxtəlif istiqamətlərə uzanan nəqliyyat yolları, artan gənc əhali anlamında qəbul olunur. Prezident İlham Əliyev müxtəlif auditoriyalar qarşısında etdiyi çıxışlarında Türk birliyini vahid ailə kimi səciyyələndirib və bildirib ki, bizim başqa ailəmiz yoxdur. Tarixi bağlılıq, milli-mənəvi dəyərlərin eyni kökdən gəlməsi, humanitar sahə, siyasi maraqların uzlaşması, coğrafi bağlılıq, din, etiqad vəhdəti Türkdilli ölkələrin birliyini mümkün və zəruri edir.

Azərbaycan və Türkiyə Türk Dövlətləri Təşkilatının (TDT) möhkəmlənməsinə və funksionallığının artmasına davamlı töhfələr verirlər. İki qardaş ölkənin Şuşa Bəyannaməsi ilə möhkəmlənən müttəfiqliyi digər Türkdilli ölkələr üçün yaxşı nümunədir. Həm Azərbaycan, həm də Türkiyə TDT-nin müxtəlif tədbirlərinə məmnuniyyətlə ev sahibliyi edirlər. Əlamətdar haldır ki, Azərbaycan Prezidentinin irəli sürdüyü Türk İnvestisiya Fondunun yaradılması ideyası məhz qardaş ölkədə reallaşdı. Həm Prezident İlham Əliyev, həm də Prezident Rəcəb Tayyib Ərdoğan Türk birliyinin möhkəmlənməsinə güclü siyasi iradə göstərirlər. Təsadüfi deyildir ki, görüşdə Türk Dövlətləri Təşkilatının və qardaş ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi və Şuşada keçiriləcək qeyri-rəsmi Zirvə görüşünün əhəmiyyəti bir daha qeyd olunub. Prezident Rəcəb Tayyib Ərdoğan Şuşadakı qeyri-rəsmi Zirvə görüşündə iştirak edəcəyini bildirib və COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırıb.

*Mübariz ABDULLAYEV*

# Bölgənin inkişafı naminə...

## Sülh üçün səfərbərlik...

Ölkəmizin sülh təşəbbüsləri və onun nəticələri istər regiona, istərsə də regionətrafı coğrafiyaya mühüm üstünlüklər vəd edir. Azərbaycanın apardığı uğurlu xarici siyasət kursu Mərkəzi Asiya, Cənubi Qafqaz, Kiçik Asiya, hətta Rusiya və İran üçün mühüm siyasi-iqtisadi dividendlər yaradır. Bu mənada, Cənubi Qafqazın prosesdə oynayacağı rol xüsusi qeyd edilməlidir - bir zamanlar kataklizmlərlə, münaqişələrlə xarakterizə edilən region bu gün əməkdaşlıq məkanı, sabitlik adası hesab olunur. Bu mənada, Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsi istiqamətində gedən uğurlu proses bütövlükdə, qlobal miqyasda, xüsusilə regional kontentdə diqqət mərkəzindədir. Qlobal sülhə və təzhlükəsizliyə həsr edilən tədbirlərdə, iqtisadi inkişafın yeni mərhələsinə həsr edilmiş toplantılar-da qarşıdakı dövrdə Cənubi Qafqazın proseslərə qazandıracağı töhfələr müzakirə edilir, mühüm üstünlükləri açıqlanır.

## Hər kəs ümid edir...

Xüsusilə, sülh prosesinin indiki mərhələsində - artıq nəticəyə yaxın olunduğu bir dövrdə bu müzakirələr daha da intensivləşib. İnkar edilə bilməz ki, aylardır vasitəçisiz formatda davam edən ikitərəfli təmasların verdiyi nəticələr təqdir olunur - ötən ilin dekabrında bəyan edilmiş ikitərəfli açıqlama və orada əksini tapan müddəalar, bu ilin aprelin 19-da əldə edilmiş razılığa əsasən 4 kəndin qaytarılması, Almatıda keçirilən ikitərəfli görüş sülhə olan inamı artırır. Xüsusilə, ikitərəfli müzakirələrin bu ilin mayında Qazaxıstanda davam etdirilməsi yeni siyasi situasiyanın yaranması ehtimalını gücləndirib. Bu məqam onu təsdiqləyir ki, artıq beynəlxalq aləm bölgədə əbədi və dayanıqlı sülhün bərqərar olmasını istəyir - bu istiqamətdə atılan addımlar isə yetərincə effektiv hesab olunur.

## Diplomatik trafik...

Qeyd edildiyi kimi, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması prosesi qonşu ölkələrin də diqqətindədir. Bunun nəticəsidir ki, Nijni Novqorodda keçirilən BRİCS ölkələri xarici işlər nazirləri Şurasının iclası çərçivəsində Rusiyada səfərdə olan Türkiyə xarici işlər nziri Hakan Fidanın keçirdiyi görüşlərdə əsas müzakirə xətti məhz cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmini məsələsidir. H.Fidanın Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkinlə keçirdiyi görüşdə İrəvanla Bakı arasında sülhün bağlanması ilə bağlı vəziyyəti müzakirə edilib. Eləcə də, H. Fidan Rusiyanın Təhlükəsizlik Şurasının katibi Şoyqu ilə analoji danışıqlar aparıb. Bu görüşdə də Ukraynadakı nizamlanma, Qəzza zolağında, Suriyadakı vəziyyətlə yanaşı, geniş şəkildə Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanması ilə bağlı müzakirələrə yer ayrılıb.



Rusiya və Türkiyə xarici işlər nazirləri Sergey Lavrov və Hakan Fidan arasında keçirilən ikitərəfli təmasda da bu məsələ diqqət mərkəzində olub.

Eyni zamanda, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Türkiyənin xarici işlər naziri Hakan Fidan arasında telefon danışığı aparılıb. Qeyd edilib ki, telefon danışığı zamanı nazirlər iki ölkə arasında ikitərəfli müttəfiqlik münasibətlərinin müxtəlif aspektləri üzrə görülən işləri və regional məsələləri müzakirə ediblər.

## Sülhün yaradacağı üstünlüklər

Beləliklə, sülh üçün hazırlanan zəmin bütün tərəflərə dividendlər vəd edir - növbəti mərhələdə Cənubi Qafqazla yanaşı, yaxın coğrafiyanın həyatında yeni - sabit, inkişafa yönəlik dövr başlaya bilər. Bu gün yeni iqtisadi nizamın formalaşdığı bir zamanda yerləşdiyimiz bölgə stabil və sabit məkan kimi şöhrət tapmaqdadır. Sülhün imzalanmasına bir addım qalmış mənzərə təxminən bu formadadır - Azərbaycan dünyanın yeni iqtisadi münasibətlər sistemində özünəməxsus yerə malik olan Cənubi Qafqaz və regionətrafı bölgədə uğurlu fəaliyyət nümayiş etdirir. Bu yolda ortaya çıxan maneələrin aradan qaldırılması üçün isə bütün diplomatik, iqtisadi, siyasi rıçaqlarından istifadə edilir. Verilən bəyanatlar, səsləndirilən fikirlər bu prioritetin nə qədər ciddi olması ilə yanaşı, uğur qazanma ehtimalının da böyüklüyünü ortaya qoyur.

Asiya ilə Avropanın "təbii körpüsü" adlandırılan, sivilizasiyaların, Şərq və Qərb mədəniyyətlərinin qovşağı sayılan Azərbaycan yeni mərhələ üçün həm də Şərq-Qərb, Şimal - Cənub tranzitlərinin aktiv fəaliyyəti üçün zəmin yaradır. Azərbaycan istər təşəbbüskarı olduğu, istərsə də iştirakçı kimi təmsil olunduğu qlobal layihələrin ilk növbədə Cənubi Qafqaz regionunu əhatə etməsi, bölgəyə dividendlər qazandırması faktoruna fokuslanır.

Regional sülhün formalaşdırılması Zəngəzur dəhlizinin reallaşması mərhələsini aktivləşdirir. Sözügedən dəhliz Azərbaycan, Ermənistan və Türkiyə arasında kommunikasiya xətlərinin təmin etməklə yanaşı, qlobal "Bir kəmər, bir yol" layihəsinin mühüm prioriteti olan "Orta Dəhliz" üzərində yeni logistik stansiyalar formalaşdıracaq. Bu coğrafi üstünlüklərdən isə Azərbaycan və Ermənistan ilə yanaşı, həm də bölgə dövlətləri yararlanacaq. Vurğulandığı kimi, regional sabitlik və təhlükəsizliyin bərqərar olması həm də bu mənada müəyyən güc mərkəzlərinin, xüsusilə Rusiya, Çin, İran, Türkiyə, eləcə də Qərb ölkələrinin marağındadır.

Sülhün İrəvana yaradacağı üstünlüklərə gəlincə isə, bunu sözlə ifadə etmək azdır - Ermənistan məhz sülh imzalamaqla özünün ilk dövlətçilik ənənəsini formalaşdıra bilər.

*S.İSMAYILZADƏ*

Rubrika: tarixə baxış...

# 2015-ci ilin bu günü...






## Bakıda Birinci Avropa Oyunlarının açılış mərasimi keçirilib

*Yeganə BAYRAMOVA*

Yəqin ki, çoxları Birinci Avropa Oyunlarının həyəcanını unutmayıb. Avropa Olimpiya Komitəsi Baş Assambleyasının 8 dekabr 2012-ci il tarixli qərarı ölkəmiz üçün mühüm mərhələnin başlanğıcını qoydu. Həmin qərarla 2015-ci ildə Birinci Avropa Olimpiya Oyunlarının keçirilməsi hüququ Bakıya verildi.

Birinci Avropa Oyunları təkcə idman yarışı deyil, əsl bayram tədbiri idi. Bəşəriyyəti birləşdirən əsas dəyərlərdən biri kimi idman sağlam düşüncəli gələcək nəslin formalaşmasında mühüm rol oynayan amildir.

**16 kilometr məsafədə daşınan məşəl...**

9 il öncə Bakını küçəbəküçə dolaşan məşəl estafetini hamı səbirsizliklə izləyirdi. Uzun sürən səyahətdən sonra Avropa Oyunlarının rəmzi olan məşəl paytaxtımıza gətirildi. Məşəl həmin il aprelin 26-da qədim od məbədi olan “Atəşgah” da start götürdü. Bu məşəl ölkəmizin hər bir guşəsini gəzib-dolaşaraq 60 rayonun sakinlərinə oyunların ruhunu çatdırdı. Avropa Oyunlarının yoluna işıq saçan məşəl bölgələrə və əfsanəvi Neft Daşlarına səyahətini başa çatdırdıqdan sonra iyunun 7-də Ağ Şəhər Bulvarına, Dövlət Bayrağı Meydanına oradan Bakının Dənizkənarı Milli Parkındakı “Sadko” limanına gətirildi. Burada onu Prezident İlham Əliyev qəbul etdi.

Sonrakı mərhələdə məşəl respublikanın tanınmış şəxsiyyətləri tərəfindən müxtəlif etaplardan keçirildi. Məşəl şəhər boyunca 16 kilometr məsafədə 100 məşqçi tərəfindən daşındı.

2015-ci il Birinci Avropa Oyunlarının açılış mərasimi isə iyunun 12-də Bakı Olimpiya Stadionunda baş tutdu. O gün Azərbaycan bir daha sübut etdi ki, bütün dünyaya açıqdır, bəşəriyyətə sülh və barış istəyir...

**İşlər cəmi 2 il yarıma başa çatdırıldı...**

Avropa Oyunlarının ölkəmizdə layiqincə keçirilməsini təmin etmək məqsədilə Prezidentin 17 yanvar 2013-cü il tarixli fərmanı ilə Təşkilat Komitəsi yaradıldı. Təşkilat Komitəsinə Birinci xanım, Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü Mehriban Əliyeva sədr təyin edildi.

Mehriban Əliyevanın rəhbərliyi ilə Bakı-2015 ilk Avropa Oyunları Təşkilat Komitəsi bu irimiqyaslı tədbirə hazırlıq işlərini cəmi iki il yarım müddətdə başa çatdırdı. Azərbaycanın bu məsuliyyətli işin öhdəsindən layiqincə gələcəyinə şübhə ilə yanaşan bəzi dairələrin təəccübünə rəğmən, çox qısa zaman ərzində oyunların keçirilməsi üçün hər cür şərait yaradıldı.

**Qitə ikincisi olmaq...**

Yarışlarda Avropanın 50 ölkəsinin 10 000 idmançısı mübarizə apardı, Bakının 11, Mingəçevirin isə 1 idman qurğusundan istifadə olundu. 2015-ci il Avropa Oyunlarının təqviminə 30 idman növü daxil edildi. Onlardan 24-ü olimpiya, 6-sı qeyri-olimpiya idman növü idi. Yarışlarda idmançılar 253 dəst medal uğrunda yarışırdı. Medal cədvəlində ilk sıranı Rusiya Federasiyasının idmançıları tutdu. Onlar Birinci Avropa Oyunlarında 79 qızıl, 40 gümüş, 45 bürünc, ümumilikdə, 164 medal qazandı. İkinci sıranı isə ev sahibi Azərbaycan idmançıları tutdu. Mübarizəyə 289 idmançı ilə qatılan Azərbaycan 21 qızıl, 15 gümüş və 20 bürünc, ümumilikdə, 56 medala sahib oldu. Avropanın 49 ölkəsindən 48-ni geridə qoyaraq qitə ikincisi olmaq doğrudan da böyük şərəf idi. Üçüncü sırada isə Böyük Britaniya qərarlaşaraq 18 qızıl, 10 gümüş və 19 bürünc medal qazandı və Birinci Avropa Oyunlarını 47 medalla başa vurdu.

**17 günlük bayram...**

“Bakı-2015” Olimpiya Oyunları gözlənildiyindən də möhtəşəm alındı. 17 gün ərzində davam edən multi-idman yarışı beynəlxalq ictimaiyyətin diqqət mərkəzində oldu. Azərbaycan bütün çətinliklərə baxmayaraq, bu əhəmiyyətli tədbirin öhdəsindən ən yaxşı şəkildə gəldi.

Oyunların yüksək səviyyədə təşkil olunduğunu tək biz yox, beynəlxalq ekspertlər, müxtəlif ölkələrin Olimpiya komitələrinin rəhbər şəxsləri, yarışlarda iştirak edən idmançılar və tədbiri işıqlandıran jurnalistlər də təsdiq edirdilər. Beləliklə, iyunun 17 günü möhtəşəm idman bayramı və Birinci Avropa Oyunlarına layiq tədbir kimi yadda qaldı...

# Regionun lider investoru...

## Azərbaycan Gürcüstana həm sərmayələri artırır, həm də bu ölkəni qlobal iqtisadiyyata bağlayır

İqtisadi sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində artıq potensial investorlardan birinə çevrilən Azərbaycan üçün indi əsas prioritet istiqamətlərdən biri də elə xarici sərmayə layihələrinin genişlənməsidir. Bu ölkələrin sırasında ilk yeri qardaş Türkiyə tutur. Sonrakı yerlərdə isə əsas tərəfdaş ölkələrdən biri kimi Gürcüstanı qeyd etmək olar. Gürcüstan Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan transmilli layihələrdə fəal iştirak etməklə bərabər, həm də investisiyaların cəlb edilməsi sahəsində tərəfdaşlıqdan əhəmiyyətli dərəcədə faydalanmaqdadır. Bunun nəticəsidir ki, ölkəmizin Gürcüstan iqtisadiyyatına töhfəsi artır, Azərbaycan şirkətləri Gürcüstanda olduqca aktivlik nümayiş etdirərək qonşu dövlətin bir çox sahələrində təmsil olunur.

Qeyd edək ki, 2023-cü ildə Azərbaycanın Gürcüstan iqtisadiyyatına yatırdığı investisiyanın həcmi isə 54 milyon dollar təşkil edib. Bu, həmin ölkəyə yatırılmış ümumi sərmayələrin təxminən 3 faizi deməkdir. Belə ki, ötən il Gürcüstan iqtisadiyyatına yönəlmiş birbaşa xarici investisiyaların həcmi 1 milyard 600 milyon dollar təşkil edib. İnvestisiyaların ən böyük hissəsi maliyyə və sığorta sektoruna yatırılıb - 630,1 milyon dollar. Bu, ümumi investisiya həcminin 39,5 faizini təşkil edir. İkinci yerdə emal sənayesi, üçüncü yerdə isə nəqliyyat sektoru qərarlaşıb. Gürcüstana ötən il ən çox böyük sərmayə qoyan ölkə Böyük Britaniya olub, 392 milyon dollar. İkinci sırada 361 milyon dollarla Niderland, üçüncü yerdə isə 169 milyon dollarla Türkiyə qərarlaşıb.

Azərbaycanın 2024-cü ilin yanvar-mart aylarında isə Gürcüstan iqtisadiyyatına birbaşa investisiyaları 12,7 milyon dolları təşkil edib. Gürcüstanın Milli Statistika Xidmətinin məlumatına əsasən, eyni dövründə Gürcüstandan Azərbaycana 7,5 milyon dolları həcmində investisiya yatırılıb. Birinci rübdə Gürcüstana birbaşa xarici investisiyalarının ümumi həcmində Azərbaycanın payı 6 faiz təşkil edib. 2024-cü ilin birinci rübündə Gürcüstan iqtisadiyyatında birbaşa xarici investisiyaların ümumi həcmi 201,4 milyon dollar təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 64,4 faiz azalma deməkdir.



Azərbaycanın Gürcüstana böyük həcmdə investisiya yatırmasının əsası 2006-cı ilin sonlarından qoyulub. Həmin vaxt SOCAR Gürcüstandakı “Kulevi” terminalına sahib olub, 2008-ci ildə təsis olunmuş “SOCAR Energy Georgia” şirkəti Gürcüstanda ilk yanacaqdoldurma stansiyasını açaraq bu şəbəkəni genişləndirib. Hazırda Gürcüstan ərazisində “SOCAR” brendi altında 50-yə yaxını stansiya fəaliyyət göstərir. Gürcüstanda pərakəndə neft məhsulları satışı bazarının 75 faizi Azərbaycanın nəzarətindədir. Son illərdə bu ölkənin nəqliyyat, infrastruktur, enerji sektorlarının əsaslı şəkildə yenidən qurulmasında da ölkəmiz əsas maliyyə təchizatçısı kimi çıxış edib. Ümumilikdə, son 30 ildə Azərbaycan bu ölkəyə 4 milyard dollara yaxın sərmayə qoyub. Həmin məbləğin 1,5 milyard dollarını Azərbaycanın SOCAR şirkəti yatırıb və birbaşa yanacaq-enerji sektorunu əhatə edir. Həmçinin, Azərbaycan şirkətləri Gürcüstanda ən böyük vergi ödəyiciləridir ki, bu da fiskal yığımlarda da ölkəmizin təminatlı rolunu təsdiqləyir. Eləcə də Gürcüstanın bölgələrində zəruri infrastrukturlar da ölkəmizin sayəsində modernləşdirilib ki, bu da sosial əhəmiyyət daşımaqla əhalinin dayanıqlı kommunal xidmətlərlə təminatını yaxşılaşdırıb. Bütün bunlar onu göstərir ki, qonşu ölkənin iqtisadiyyatının əhəmiyyətli bir hissəsi Azərbaycanın maliyyəsi hesabına təmin olunur.

Azərbayca həm də Gürcüstanın dünyaya bağlantısını da təmin edən və Cənubi Qafqazdan Avropaya enerji-nəqliyyat tranzitlərinə qoşan lider dövlətdir. Hazırda Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi çərçivəsində tranzit gömrük prosedurlarının asanlaşdırılması nəzərdə tutulur ki, bu da beynəlxalq ticarət qaydalarının sadələşdirilməsi fonunda Gürcüstanın beynəlxalq nəqliyyat qovşaqlarına çıxışını daha da asanlaşdıracaq. Yeni İpək Yolunun Orta Dəhlizində öz strateji mövqeyini artıran Azərbaycan nəqliyyat sistemlərinin ötürcülüyünün daha da gücləmnəsində və şaxələnməsində xüsusi təşəbbüskarlıq etməklə yanaşı, Gürcüstanı da Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinə bağlayır. Azərbaycan bu qlobal dəhlizlərin, o cümlədən BTQ-nin müasirləşməsinə, nəqliyyat landşaftının genişlənməsinə böyük sərmayələr qoyur və bu investisiyalar həm də Gürcüstanın infrastrukturların müasirləşməsinə səbəb olur. Yəni ölkəmizin investisiya siyasəti regional əhəmiyyət daşımaqla qonşu ölkənin maliyyə ehtiyaclarını da təmin edir. Bu siyasət isə regional nəqliyyat-enerji sistemlərinin rentabelliyini artırmaqla beynəlxalq tranzit daşımalarının həcminin artmasına, BTQ-nin Çin və Orta Asiyadan daha çox yükü qəbul edilərək Avropaya çatdırılmasına səbəb olacaq. Bu tranzit daşınmalarından isə Azərbaycanla yanaşı, Gürcüstan da öz gəlirlərini artırmış olacaq. Hazırda ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin inkişafı, tranzit yükdaşımalar və logistika imkanlarının genişləndirilməsi, Gürcüstan və Azərbaycanda istehsal olunan mallara aksiz vergisinin bərabərləşdirilməsi, həmçinin birgə layihələrin icrası nəzərdə tutulur ki, bundan ölkəmizlə yanaşı, qonşu dövlət də faydalanacaq. Beləliklə, Gürcüstan bütün iqtisadi layihələrdə təmsil olunmaqla həm öz iqtisadi infrastrukturlarını yaxşılaşdırır, həm də Azərbaycanın sayəsində öz milli inkişafını möhkəmləndirmiş olur.

*E.CƏFƏRLİ*

# Azərbaycan Avropaya qaz ixracını artırır

## TransXəzər ideyası isə gerçəkliyə indi daha yaxındır

Azərbaycan 2024-cü ilin yanvar-may aylarında Avropaya 5,3 milyard kubmetr təbii qaz ixrac edib. Bu, 2023-cü ilin eyni dövrü ilə müqayisədə Avropaya qaz nəqlinin 0,5 milyard kubmetr və ya 10,4 faiz artması deməkdir. Ümumilikdə isə ötən 5 ay ərzində Azərbaycandan xaricə qaz satışı 10,6 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz çoxdur. Qeyd edilən dövrdə ölkəmizdən Türkiyəyə qaz ixracının həcmi 4,1 milyard kubmetr, Gürcüstana 1,2 milyard kubmetr təşkil edib. Hesabat dövründə TANAP-la 2,3 milyard kubmetrə yaxın qaz nəql olunub. Avropanın cənubuna qaz nəqlini təmin edən TAP kəmərinin isə ötürücülük qabiliyyəti ildə 12 milyard kubmetrə çatıb.




Qeyd edək ki, Azərbaycan 2020-ci ilin dekabr ayının son günündə Cənub Qaz Dəhlizinin sonuncu hissəsini - TAP-ı istifadəyə verməklə faktiki olaraq Avropa İttifaqının qaz bazarına daxil olub. 2021-ci ildə Azərbaycan Avropa regionuna 8 milyard kubmetr, 2022-ci ildə 11 milyard kubmetrdən çox qaz ixrac edibdir. 2023-cü ildə isə 12 milyard kubmetrdən çox qaz ixrac edibdir. 4 ildir ki, qlobal qaz bazarının ən etibarlı və layiqli üzvü kimi tanınan Azərbaycandan qaz almaq istəyən ölkələrin sayı hər il artır və hazırda 8 Avropa dövləti Azərbaycandan qaz alır.

2024-cü ilin ilk 5 ayının qaz ixracı statistikası ehtiva edir ki, ilin sonunda Avropa bölgəsinə ixrac olunacaq mavi yanacağın həcmi təxminən 13-14 milyard kubmetr təşkil edəcək. Növbəti illərdə ixracın daha da artırılması gözlənilir və Xəzərin Azərbaycana aid sektorlardakı yeni qaz yataqlarında hasilatın artırılması işləri davam etdirilir. Nəticədə növbəti ildə Aİ-nin digər ölkələrinə də qaz nəqlini təmin etmək mümkün olacaq. Belə ki, Slovakiya, Avstriya, Makedoniya, Moldova və digər ölkələrin də Azərbaycan qazı əldə etməsi mümkünləşmiş olacaq.

Qaz İxrac Edən Ölkələrin Forumunun (GECF) hədəf proqramına əsasən, Avropanın etibarlı və uzunömürlü qaz təminatı strategiyasında Azərbaycanın rolu daha da artmalıdır. Proqnozlara əsasən, 2025-2027-ci illərdə ölkəmizin qaz istehsalı 40 faiz artacaq və Avropaya qaz nəql edən TAP kəmərinin illik gücü 20 milyard. kubmetrədək artırılacaq. Avropa İttifaqı Azərbaycanın enerji resursları ilə yanaşı, Cənub Qaz Dəhlizinə digər Xəzəryanı ölkələrin də yanacaq ehtiyatlarının cəlb olunmasını təklif edir və bu da həmin dəhlizin genişləndirilməsini zəruri edir. Xəzər regionunun digər ölkələri Türkmənistan, Özbəkistan, Qazaxıstanın da Cənub Qaz Dəhlizinə qoşulması istiqamətində aktiv danışıqlar aparılmaqdadır. Bu isə TransXəzərin reallaşmasını aktuallaşdırır.

Avropa İttifaqının enerji üzrə ekspertləri hesab edirlər ki, Azərbaycan Mərkəzi Asiya-Xəzər regionun təşəbbüskar və avanqard ölkəsi kimi bölgənin yanacaq resurslarınnı Qərbə nəqlində daşıyıcı missiyasına malikdir. Ona görə də Azərbaycanın digər region ölkələrinin yanacağının cəlbində və daşınmasında rolu və etibarı daha böyük olduğundan Avropa İttifaqı yeni sazişlərin imzalanmasını da Bakı ilə əlaqələndirir.

Bir müddət əvvəl Bakıda Azərbaycan və Türkiyə arasında təbii qaz sahəsində imzalanan saziş çərçivəsində Türkmənistan qazının Gürcüstan ərazisi ilə Türkiyəyə tədarükü ilə bağlı razılıq əldə olunub. Razılaşmaya əsasən, Türkmənistan qazı Bakı-Tbilisi-Ərzurum və Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) vasitəsilə qardaş ölkəyə nəql olunacaq. Bu saziş Türkmənistanın Cənub Qaz Dəhlizinə qoşulması üçün açar rolunu oynaya bilər. Belə ki, Türkmənistan qazının Azərbaycan üzərindən Avropaya nəqli üçün hüquqi-iqtisadi əsaslar yaranır, Azərbaycanın müəllifi olduğu TAP kəməri Cənub Qaz Dəhlizinə qoşulmağı təmin edir.

Avropa İttifaqı ölkələri Rusiya qazının həcmlərinin azaldığını nəzərə alaraq bir neçə enerji mənbəyinə ümid edir ki, onlardan ən rentabelli və perspektivlisi Xəzər regionudur. Xəzər regionu Asiya və Avropanın əsas qaz istehlak bazarlarına daha yaxındır və bu baxımdan Aİ Xəzər dənizinin zəngin qaz ehtiyatlarının tədarükünü daha da tezləşdirməyə çalışır. Bu baxımdan Xəzər regiounun qaz tədarükçüləri olan Türkmənistan, Qazaxıstan və Azərbaycana ehtiyac daha da artır. Xəzərə zəngin yanacaq mənbəyi kimi xüsusi önəm verən Avropa İttifaqı məhz Azərbaycanın liderliyi sayəsində bölgənin digər ölkələrini - Türkmənistan, Özbəkistan, Qazaxıstan və hətta İranın da gələcəkdə Cənub Qaz Dəhlizinə qoşulmasnı və qaz nəqlinin artırılması gerçəkləşməyə yaxındır. Beləliklə, Xəzər mənbəyindən Avropaya illik 100 milyard kubmetrə yaxın qaz nəqlinin əldə olunması mümkünləşə bilər.

*ELBRUS CƏFƏRLİ*

# 31 ölkədən 102 QHT...

## BMT-nin İqlim Dəyişmələri Konfransında bir qrup xarici QHT Azərbaycanla bağlı bəyanat yayıb



Almaniyanın Bonn şəhərində keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Yardımçı Qurumunun 60-cı sessiyasında iştirak edən bir sıra QHT-lər Azərbaycanın COP29 ölkəsi kimi bütün maraqlı tərəflərlə dialoq və əməkdaşlığı təşviq edən fəaliyyətini təqdir edən bəyanat yayıb.

Bəyanata 31 ölkədən 102 QHT təmsilçisi və ictimai fəal imza atıb.

**Bonn bəyanatında nələr var?**

Bəyanatda deyilir: “Biz, aşağıda imzası olan vətəndaş cəmiyyəti təşkilatları qlobal ictimaiyyəti davamlı və yaşıl gələcəyə doğru istiqamətləndirmək kimi mühüm vəzifəyə rəhbərlik edən COP29 Sədrliyinə və tədbirə ev sahibliyi edəcək Azərbaycana öz dəstəyimizi bildiririk. Vətəndaş cəmiyyəti təbliğat, monitorinq, təmsilçilik və innovativ həllər təmin etməklə, iqlim dəyişmələri danışıqlarına öz töhfəsini verir. İqlim məsələləri ilə bağlı ictimaiyyətin məlumatlılığının artırılmasından tutmuş daha güclü iqlim siyasətinin icrasına nail olmaq üçün biz müxtəlif icmaların, xüsusən də həssas və təcrid vəziyyətinə düşmüş qrupların narahatlıqlarını danışıqlarda ön plana çıxarırıq. Bu baxımdan COP29-a sədrlik və ev sahibliyi edəcək Azərbaycanın bütün maraqlı tərəflərlə dialoq və əməkdaşlığın təşviqində rolu çox əhəmiyyətlidir”.

**Azərbaycanın indiyədək ən inklüziv COP-a ev sahibliyi edəcəyinə inanırıq**

Xarici QHT-lərin Bonn bəyanatında, həmçinin qeyd edilir ki, “həssas və təcrid vəziyyətinə düşmüş icmaların, o cümlədən yerli xalqların, qadınların və gənclərin səslərinin danışıqlar prosesində eşidilməsini və nəzərə alınmasını təmin etmək vacibdir. İqlim fəaliyyətinə təkan vermək üçün vətəndaş cəmiyyətinin əsas rolunu dərk etməklə, QHT nümayəndələrini qərarların qəbulu proseslərinə fəal şəkildə cəlb etməklə, insanların və planetin ehtiyaclarını prioritet elan etməklə, biz Azərbaycanın indiyədək ən inklüziv COP-a ev sahibliyi edəcəyinə inanırıq”.

Bəyanatda Azərbaycanın inkişaf etməkdə olan dünyanın ehtiyaclarını nəzərə alaraq, bu ölkələrdə yaşayan yüz milyonlarla insanın, o cümlədən inkişaf etməkdə olan kiçik ada dövlətlərinin iqlim dəyişmələri ilə bağlı çətinliklərini dilə gətirməsi, həlli üçün ardıcıl səy göstərməsi xüsusi vurğulanır. Bundan başqa, COP29 üzrə iqlim dəyişmələrinin həllində qlobal liderliyi öz üzərinə götürən Azərbaycanın mənalı əməkdaşlığa, iddialı öhdəliklər götürülməsinə, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında yeni maliyyə hədəfi üzrə konsensusa nail olacağına və hamı üçün bərabər və ədalətli gələcəyin qurulmasına doğru ciddi addımlar atacağına əminlik ifadə olunur. Bəyanat bu sözlərlə yekunlaşır: “Bonn konfransında iştirak edən vətəndaş cəmiyyəti təmsilçiləri iqlim sazişlərinin məqsədlərinə nail olmaq üçün bütün maraqlı tərəflərlə əməkdaşlığa hazırdır. Biz birlikdə əmin ola bilərik ki, COP29 dayanıqlı gələcəyə doğru mühüm mərhələni uğurla başa vuracaq”.

**Rəqəmlər danışır**

Son vaxtlar COP29-la əlaqədar Azərbaycana xarici QHT-lərdən ardıcıl dəstək bəyanatları qəbul olunmaqdadır. Beləliklə, son dörd ayda 50-dən çox ölkəni təmsil edən 360-dan artıq QHT və ictimai fəal birgə bəyanatlar yayaraq, Azərbaycanın COP29 üzrə qlobal liderliyini təqdir edib. Bu təşkilatlar arasında inkişaf etməkdə olan regionların təmsilçilərinin üstünlük təşkil etməsi də müşahidə olunur. Bu isə o deməkdir ki, Prezident İlham Əliyevin inkişaf etməkdə olan dünyanın problemlərini ardıcıl şəkildə qaldırması, qlobal təşəbbüslərlə çıxış etməsi dünyanın müxtəlif regionlarda böyük maraqla qarşılanır, diqqətlə izlənilir və Azərbaycana olan rəğbəti artırır. Xarici QHT-lərin bəyanatlarında Azərbaycana ümid yeri kimi yanaşılması da bunun bariz nümunələrindən biridir.

# YAP Nizami rayon təşkilatının rəhbərliyi və fəalları Şuşaya səfər ediblər




15 İyun - Milli Qurtuluş Günü münasibətilə Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatının rəhbərliyi və fəalları işğaldan azad olunmuş Şuşa şəhərinə səfər ediblər.

Səfər çərçivəsində Şuşa şəhəri ilə tanışlıq olub.

Onlara Xurşid Banu Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin erməni işğalçıları tərəfindən güllələnmiş heykəllərinin qoyulduğu Şuşa şəhər mərkəzi meydanı, Xurşidbanu Natəvanın evi, Xan qızı bulağı, Şuşa qalasının Gəncə qapısı, XVIII əsr Azərbaycan şairi Molla Pənah Vaqifin məqbərəsi, Yuxarı Gövhər ağa məscidi və Cıdır düzü barədə məlumat verilib. Həmçinin Şuşanın tarixi, dağıdılmış abidələrinin bərpası, şəhərin yenidən qurulması istiqamətində görülən işlər barədə məlumat verilib.



# 15 ölkənin 14-dən dəstək...

## BMT TŞ ABŞ-ın Qəzzada atəşkəsə dair təqdim etdiyi qətnaməni qəbul edib

Yaxın Şərqdə ötən ilin oktyabrından başlayan qanlı toqquşma davam edir. Qəzza zolağında davam edən münaqişənin günahsız qurbanlarının sayı 40 minə yaxınlaşıb. Xüsusilə, bölgədə fələstinli dinc əhali arasında həlak olanların sayı çoxdur. Eyni zamanda, Qəzza zolağında qarşıdurma başlayandan bəri İsrailə 19 mindən çox raket atılıb. Bu barədə İsrail Müdafiə Qüvvələri məlumat yayıb. Onların əksəriyyətinin Qəzza zolağından buraxıldığı, lakin son vaxtlar Livandan atılan raketlərin sayının artdığı qeyd edilir. "Söhbət yalnız İsrailin hava məkanına daxil olan raketlərdən gedir. Belə ki, İsrail ərazisinə çatmayan raketlər nəzərə alınmır. Həmçinin bu rəqəmə Livan ərazisindən buraxılan idarə olunan tank əleyhinə raketlər daxil deyil", - məlumatda bildirilib.

Belə bir şəraitdə iyunun 10-da BMT Təhlükəsizlik Şurası ABŞ-ın İsrail və Fələstinin HƏMAS hərəkatı arasında atəşkəsə dair qətnamə layihəsinin lehinə səs verib. BMT Təhlükəsizlik Şurasının 15 üzvündən 14-ü bu sənədi dəstəkləyib. ABŞ-ın təklif etdiyi qətnamə layihəsi yeddi bənddən ibarətdir, bunlardan birincisi, HƏMAS-ı razılaşmanı qəbul etməyə və həmçinin bütün tərəfləri heç bir şərt və ya gecikmə olmadan onun müddəalarını tam şəkildə yerinə yetirməyə çağırışdır.



Bundan əlavə, sənəddə vurğulanır ki, atəşkəs üzrə məsləhətləşmələr altı həftədən çox uzanarsa, o zaman atəşkəs danışıqlar davam etdiyi müddətdə qüvvədə qalacaq. Qətnamədə, həmçinin BMT-yə üzv olan bütün ölkələr sazişin həyata keçirilməsini dəstəkləməyə çağırılır, İsrail və Fələstin arasındakı münaqişənin iki dövlətin dinc yanaşı yaşaması əsasında həllinə sadiqliyi bir daha təsdiqlənir.

Qeyd edək ki, hələ mayın 31-də ABŞ Prezidenti Co Bayden İsrail və HƏMAS-a Qəzza zolağı üçün üç mərhələli atəşkəs planı təklif etmişdi. Bayden İsrail və HƏMAS arasında mümkün razılaşmanın detallarını da açıqlamışdı. Onun sözlərinə görə, bu təşəbbüs üç mərhələni əhatə edir. Birinci mərhələ tam atəşkəsi, İsrail hərbçilərinin Qəzzadan çıxarılmasını, həmçinin HƏMAS-ın əlində olan girovların bir qisminin azad edilməsini nəzərdə tutur. Eyni zamanda, həbs olunan fələstinlilər də azad edilməlidirlər. İkinci mərhələ qalan girovların azad edilməsi müqabilində hərbi əməliyyatların qeyri-müəyyən müddətə dayandırılmasını nəzərdə tutur. Bu təşəbbüsün üçüncü mərhələsində döyüşlər nəticəsində Qəzza zolağının zərər görmüş yerləri yenidən qurulmalıdır. ABŞ Prezidenti bildirib ki, üç mərhələdən ibarət təklif Qətərin vasitəçiliyi ilə HƏMAS-a verilib.

Avropa İttifaqı da ABŞ Prezidenti Co Baydenin təklif etdiyi və Qəzza zolağında davamlı atəşkəsə gətirib çıxaracaq yol xəritəsini tam dəstəklədiyini bəyan edib. Bu barədə Avropa İttifaqının Xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borrell bildirib: "Aİ ABŞ, Misir və Qətərin İsrail və HƏMAS arasında müharibəni dayandırmaq üçün səylərini yüksək qiymətləndirir". Onun sözlərinə görə, Yaxın Şərqdə sülh və sabitlik hər iki xalqın, bütövlükdə, regionun və bütün dünyanın maraqlarına cavab verir. "Aİ hər iki tərəfi Baydenin Qəzzada atəşkəs üçün təklif etdiyi üç həll mərhələsini qəbul etməyə və həyata keçirməyə çağırır", - deyə Borrell əlavə edib.

Onu da qeyd edək ki, regionda atəşkəsin əldə edilməsi üçün intensiv danışıqların davam etdiyi bir vaxtda ABŞ Dövlət katibi Antoni Blinken İsrailin müdafiə naziri Yoav Qalantla görüşüb. Bu barədə Dövlət Departamentinin mətbuat xidmətinin rəhbəri Metyu Miller məlumat verib. "Dövlət katibi və müdafiə naziri girovların azad edilməsi ilə bağlı razılaşmanın bir hissəsi kimi Qəzza zolağında atəşkəsə nail olmaq, bütün girovların azad edilməsini təmin etmək və Qəzzaya humanitar yardım göstərmək təklifini müzakirə ediblər", - deyə o bildirib. Miller deyib ki, Blinken İsrailin sazişə sadiqliyini təqdir edib.

*Nardar BAYRAMLI*

# Konstitusiya dəyişikliyi üçün presedent...

## Rəsmi İrəvan beynəlxalq hüquqi prosedurlardan nümunə götürməlidir

Ermənistan ilə Azərbaycan arasında sülhün imzalanması, münasibətlərin normallaşması region üçün yeni perspektiv vəd etməklə yanaşı, beynəlxalq miqyasda yeni mərhələ formalaşdırır. Uzun illərə söykənən münaqişələrin həlli, anlaşılmazlıqların aradan qaldırılması, mübahisələrin sonlandırılması üçün mühüm prsedentə çevrilmə imkanına malik prosesin inkişafı isə asan başa gəlmir - xüsusilə, Ermənistanın artıq 4 ilə yaxındır ki, beynəlxalq hüquqa riayət etməməsi, bir sıra hüquqi prosedurları ləngitmək üçün bəhanələr uydurması müsbət nəticənin əldə olunması üçün əngəl yaradır. Doğrudur, ötən ilin sonundan etibarən ikitərəfli təmasların inkişafı, bu ilin aprelindən isə təxminən 13 kilometrlik ərazidə sərhədlərin delimitasiyasının aparılması müəyyən ümidlər yaradır - amma məsələnin birdəfəlik və beynəlxalq hüquqa əsaslanan həlli yolunun müəyyənləşdirilməsi üçün hələ atılası addımlar var.

### Sülh üçün əsas şərtlərdən biri...

Əldə olunan bir sıra razılaşmalar, vasitəçisiz təmaslar, delimitasiya və demarkasiya prosesinin müəyyən bir mərhələsinin icrası sülhün mümkünlüyünə ümid yaradır. Təbii ki, bununla bağlı ən əsas şərtlərdən biri Ermənistanın siyasi iradə nümayiş etdirməsidir. Yəni hələ 2022-ci ildə Azərbaycanın irəli sürdüyü 5 şərtdə göstərildiyi kimi, sülhün davamlı və əbədi xarakter daşıması təmin edilməlidir. İlk növbədə Ermənistan Azərbaycana və Türkiyəyə qarşı əsassız, qondarma iddialarını geri götürməli, özünün yalançı təbliğatına son verməlidir - bu məsələ həm BMT-nin təməl prinisiplərinə, həm də digər beynəlxalq qanunvericiliyə əsaslanır. Ermənistan Azərbaycanın beynəlxalq aləm tərəfindən qəbul edilən sərhədlərinin toxunulmazlığını tanımaqla yanaşı, Azərbaycana qarşı əsassız ərazi iddialarından rəsmən əl çəkdiyini ortaya qoymalıdır. Eyni zamanda, bu addım İrəvanın imzalanacaq sülh üçün münbit zəmin formalaşması üçün çalışmasının göstəricisi kimi xarakterizə oluna bilər. 200 ilə yaxındır ki, Azərbaycana qarşı əsassız torpaq iddiaları irəli sürən, işğal siyasəti aparan Ermənistan artıq bu iddialarından geri durmalıdır. Onlar anlamalıdırlar ki, bu cür xəstə təfəkkürə söykənən əsassız iddialar iki xalqın arasında münasibətlərin kəskinləşməsi ilə yanaşı, normal qonşuluq münasibətlərinin yaranmasına da mane olur.

Bunun üçün isə ilkin şərt Ermənistan konstitusiyasında dəyişikliklərin edilməsidir.



### Dəyişiklik zərurəti...

Hər iki dövlətin Ana Yasasına diqqət yetirdikdə bu və ya digər fərqlər açıq şəkildə uzə çıxır - Azərbaycan Konstitusiyasında heç bir ölkəyə qarşı hansısa bir iddia yer almır. Amma Ermənistanın əsas qanunlar toplusunda bu məqam xüsusi xətlə keçir, Azərbaycanın suverenliyinə qarşı təhdid yer alır. Xatırladaq ki, Ermənistanın Müstəqillik Bəyannaməsi əsasında yazılan konstitusiya 1995-ci il iyulun 5-də qəbul edilib. 2005-ci il noyabrın 27-də dəyişiklik olunub. 2015-ci il iyulun 15-də isə Konstitusiya islahatı üzrə Ermənistan prezidenti yanında xüsusi komissiya 20 il öncə qəbul olunmuş sənədə əlavə və dəyişikliklər edib. Ancaq heç birində Ermənistanın regionda pozuculuq fəaliyyətinə əsas verən məsələlərə diqqət yetirilməyib.

Problem isə ondan qaynaqlanır ki, Ermənistanın Müstəqillik Bəyannaməsinin preambulasında "Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1 dekabr 1989-cu il tarixli "Ermənistan SSR-yə yenidən birləşmək haqqında" birgə qondarma qərardan bəhs olunur. Yəni rəsmi olaraq Ermənistan hələ də 4.4 min kv km-lik Azərbaycan torpağına iddia ortaya qoyur. Türkiyə ilə münasibətlərin tənzimlənməsinə olan maneəyə gəldikdə isə sənəddə 1915-ci ildə Osmanlı dövlətində qondarma "erməni soyqırımı"nın beynəlxalq səviyyədə tanınmasına nail olunması da vurğulanır.

Beləliklə, Azərbaycan haqlı olaraq Ermənistan Kosntitusiyasının dəyişikliyinə ehtiyac duyulduğunu önə çəkir. Rəsmi İrəvan isə bu məsələni də yenidən manipulyasiyaya uğratmaqla sülhü gecikdirir.

### Presedent mövcuddur...

Halbuki bu problemin çıxış yolu var - beynəlxalq münasibətlər sistemində bunun analogiyası və ya presedenti mövcuddur. Bir müddət öncə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (CAİR) İdarə Heyətinin sədri Fərid Şəfiyev bu məsələ ilə bağlı verdiyi açıqlamasında həll yolu ilə bağlı misalları önə çəkmişdi. O bildirmişdi ki, presedent kimi "Belfast sazişi" götürülə bilər. Bu, 1998-ci ildən bəri ən yaxşı və nisbətən yeni presedentdir - 1998-ci ilin noyabrın 19-da Böyük Britaniya parlamentinin qəbul etdiyi Şimali İrlandiya aktına görə, 1920-ci il İrlandiya hökuməti haqqında və 1973-cü il Şimali İrlandiya Konstitusiyası haqqında qanunlar ləğv olundu və Britaniya ilə İrlandiya Respublikası arasında 1998-ci il aprelin 10-da əldə edilmiş Belfast razılaşmasına əsasən yeni qaydaları müəyyən etdi. Şimali İrlandiyanın Konstitusiyasının 2 və 3-cü maddələri çıxarıldı. İrlandiya Respublikasının Konstitusiyasından Şimali İrlandiyaya ərazi iddialarını nəzərdə tutan maddələrin çıxarılması təsbit olundu.

Beləliklə, Ermənistan da bu presedenti özü üçün əsas götürərək Konstitusiyasında dəyişiklik edə bilər...

### Yersiz etiraz....




Ermənistan sülh istəyirsə, bölgədə stabillik və inkişaf, təhlükəsizlik seqmentinin daha da davamlı olmasını arzulayırsa, kənar oyunçuları prosesə qatmamalıdır. Məsələn, 44 günlük müharibə ilə başa çatan "münaqişə" həm də ATƏT-in Minsk qrupunu tarixin arxivinə yollayıb. Artıq tərəflər vasitəçiz bir ortamda razılaşmanın bir addımlığındadırlar. Son reallıqlar bu quruma ehtiyacın qalmadığını faktiki olaraq ortaya qoyur. Azərbaycanın öz iradəsi və gücü hesabına beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Nizamnaməsinə uyğun olaraq ərazi bütövlüyünü və suverenliyini təmin edərək işğala son qoyması artıq Ermənistan-Azərbaycan münaqişəsini də tarixə çevirib. Belə bir "münaqişə" olmadığı üçün ATƏT-in Minsk qrupuna da ehtiyac yoxdur - Azərbaycan tərəfi bu məsələni qaldırıb və əslində, Ermənistan tərəfinin də buna razı olmaması üçün hər hansı bir səbəb görünmür. Amma təssüfləndirici haldır ki, Azərbaycan Minsk Qrupunun ləğvi ilə bağlı təklifinə Ermənistan etiraz edir. Bu isə bütövlükdə, sülh prosesinin sürətli və effektiv inkişafına mane olur. Çünki davamlı sülhə gedən yol boş bəyanatlardan deyil, bu sülhə olan təhdidlərin aradan qaldırılmasından keçir...

*P.SADAYOĞLU*

# Fransanın informasiya blokadasına son!

**Afrikada, dənizaşırı ərazilərdə törətdiyi insanlıq əleyhinə cinayətləri beynəlxalq ictimaiyyətdən gizlətmək Fransanın bugünkü hakimiyyətinin ən eybəcər formada davam etdirdiyi neokolonializm siyasətinin tərkib hissəsidir. Müstəmləkəçiliyin hər hansı bir formada təzahürlərinin qalması XXI əsrin çağırışları ilə qətiyyən bir araya sığmır. Bu, keçmişin qalığıdır və ondan imtina olunmalıdır. Ancaq başqalarına demokratiyadan dərs vermək cəhdlərində bulunan, insan haqlarından, bərabərlikdən, qardaşlıqdan danışan Fransa siyasətindən heç bir vəchlə əl çəkmək istəmir. O cümlədən apardığı ikrah doğuran siyasətin son dərəcə mürtəce mahiyyət daşıdığının fərqində olan Yelisey Sarayı yüz illər boyunca istismar etdiyi, təbii sərvətlərini taladığı ölkələr ətrafında bir növ informasiya blokadası qurub. Ancaq artıq daş yerindən tərpənib. Hazırda müstəmləkə ölkələrinin xalqlarının azadlıq mübarizəsinin yeni bir mərhələsi başlayıb. Həmçinin müstəmləkə ölkələri Yelisey Sarayının qurduğu informasiya blokadasını yarmaq əzmi nümayiş etdirirlər. Son günlərdə bununla bağlı Bakı Təşəbbüs Qrupundan daha bir təşəbbüs gəlib. Belə ki, Yeni Kaledoniyada informasiya blokadasını yarmaq və adada baş verənləri yerli rəsmilərin dilindən eşitmək üçün Bakı Təşəbbüs Qrupu hibrid mətbuat konfransı keçirəcək.**

## Yeni Kaledoniyada nə baş verir?

XX əsrin əvvəllərindən başlayaraq Fransa Yeni Kaledoniyada siyasi mövcudluğunu möhkəmlətməklə yanaşı, burada tapılmış faydalı qazıntı yataqlarını da istismar etməyə başlayıb. Ada qızıl, bürünc, xrom, nikel, dəmir və s. filiz ehtiyatları ilə zəngindir. Fransa digər müstəmləkələrində olduğu kimi, burada da təbii sərvətləri talayıb, yerli əhalidən isə ucuz işçi qüvvəsi kimi istifadə edib. Ada sakinləri ötən əsrin 80-ci illərindən etibarən Fransanın ağır müstəmləkəçilik siyasətinə qarşı etirazlara başlayıblar.

Yerli əhalinin fəallığı isə Yelisey Sarayını əsla qane etmir. Paris ada ölkəsinin sərvətlərini sakit şəkildə talamaq üçün planlar qurur. Yeni Kaledoniyada əhalinin milli-etnik tərkibini dəyişmək də bu planların tərkib hissəsidir. Kanakları ayağa qaldıran yeni konstitusiya "islahatları" da məhz bu mürtəce, xəbis niyyətə hədəflənib. İndiyədək Fransanın mərkəzi hakimiyyəti buraya çoxlu sayda əcnəbinin, o cümlədən də kriminal ünsürlərin köçürülməsinə nail olub. İndi isə söhbət onların seçki hüquqlarının tanınmasından gedir. Səsvermə sisteminin dəyişdirilməsi ilə bağlı Fransa parlamentinin müzakirəsinə çıxarılan qanun layihəsinə görə, 10 il Yeni Kaledoniyada yaşayan Fransa vətəndaşları əyalət seçkilərində səs verə biləcəklər. Fransa hakimiyyətinin Yeni Kaledoniyada gəlmələrin seçki hüquqlarını genişləndirmək planı çox doğru olaraq elektoratın tərkibini dəyişmək hədəfi anlamında qəbul olunur.






Makron hökuməti Yeni Kaledoniyada konstitusiya "islahatlarının" reallaşmasında israrlı mövqe sərgiləyir. Qeyd edək ki, Fransa təhlükəsizlik qüvvələri Yeni Kaledoniyada yerli Kanak xalqının dinc etiraz aksiyasına zorakılıqlarla cavab verib, habelə on nəfərdən artıq dinc sakin öldürülüb, yüzlərlə insan yaralanıb və həbs edilib. Fransa hökumətinin qərarı ilə Yeni Kaledoniyaya giriş qapadılıb, qanunsuz komendant saatı hələ də davam edir. Fransa polisi və jandarması tərəfindən törədilən vəhşiliklərin dünya ictimaiyyətindən gizlətmək məqsədilə adanın sahibi olan kanakların fundamental hüquqları kobud şəkildə pozularaq ifadə və fikir azadlıqları məhdudlaşdırılıb. Verilən məlumata görə, müstəqillik tərəfdarı olan aborigen kanakların və Paris yönümlülərin liderləri ilə görüşdən sonra Makron arxipelaqda növbəti referenduma aparacaq yol xəritəsi təqdim edib. Xatırladaq ki, 1998-ci ildə imzalanmış Numey razılaşmasına əsasən, Yeni Kaledoniya müstəqillik qazanmaq üçün üç referendum keçirməli idi. 2021-ci il dekabrın 12-də kaledoniyalılar sonuncu referendumu keçirdilər. Lakin referendumun nəticəsi "yox" olub və yerli əhali müstəqillik istəyinə çata bilməyib. Ekspertlərin qənaətinə görə, Makron hökumətinin hazırladığı yeni konstitusiya "islahatları" tətbiq edildikdən sonra kanaklar azadlıq istəklərindən bir qədər də uzaq düşəcəklər.

## Yerli rəsmilər jurnalistlərin suallarını cavablandıracaqlar

Fransa hakimiyyətinin Yeni Kaledoniya ətrafında qurduğu çəpərin dağıdılması yerli əhalinin paytaxtda və digər yaşayış məntəqələrində apardığı mübarizə qədər önəmlidir. Nəhayət, Makron hökumətinin maskaları yırtılmalı və müstəmləkə ölkələrinin həqiqətləri dünyaya yayılmalıdır. İyunun 13-də keçirilməsi nəzərdə tutulan "Dekolonizasiya, beynəlxalq diplomatiya və müasir dünyada kommunikasiyanın rolu" mövzusunda dəyirmi masa müzakirələrinə və mətbuat konfransına Afrikanın müxtəlif ölkələrindən bir qrup jurnalist, tanınmış blogerlər və vətəndaş cəmiyyəti fəalları, eləcə də Yeni Kaledoniyalı jurnalistlər qatılacaqlar.

Konfransın məqsədi Yeni Kaledoniya, o cümlədən Fransanın digər müstəmləkələrində geniş vüsət alan insan hüquq və azadlıqlarının pozuntularına media vasitəsilə dünya ictimaiyyətinin diqqətini çəkmək, Afrikada hələ də davam edən müstəmləkəçiliyin yeni mərhələsi - neokolonializmlə mübarizə istiqamətində kommunikasiya sahəsində birgə əməkdaşlığın qurulmasının müzakirə etməkdir. Mətbuat konfransında Yeni Kaledoniyadan olan yerli rəsmilər jurnalistlərin suallarını cavablandıracaqlar. Konfransa 20-dən çox xarici media nümayəndəsinin iştirakı gözlənilir. Konfransın hibrid formada təşkil olunması nəzərdə tutulub. Tədbir Bakı vaxtı ilə saat 16:00-da baş tutacaq.

*Mübariz FEYİZLİ*

# Ailə və Cinayət Məcəlləsində yenilik...

## Effektiv olacaq?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti üzrə hazırlanmışdır

Ötən gün Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin iclası keçirilib. İclasda Ailə Məcəlləsinə təklif edilən bəzi dəyişikliklər müzakirə edilib. Yeni dəyişikliyə əsasən Azərbaycanda nikah yaşının 1 il azaldılmasına yol verilən hal aradan qaldırılır.

**Nikah yaşı ilə bağlı bu qərar ləğv edildi...**

Məlumdur ki, Ailə Məcəlləsinə görə, Azərbaycan Respublikasında nikah yaşı 18 yaş müəyyən olunur. Hazırda üzrlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər. Ancaq layihəyə əsasən, bu hal ləğv edilir və nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına artıq icazə verilməyəcək.

**Bu valideynləri 2 ilədək həbs gözləyir...**

Eyni zamanda komitənin iclasda müzakirə edilmiş məsələlərdən biri övladının hüquq və azadlıqlarını pozan bəzi valideynlərin həbsi ilə bağlıdır. Belə ki, Cinayət Məcəlləsinə yeni 176-2-ci maddə (On altı yaşına çatmayan şəxsin erkən evliliyinin təşkili) əlavə edilir. Bununla da, Azərbaycanda 16 yaşına çatmayan övladının evliliyini təşkil edən valideynlər 2 min manatdan 3 min manatadək cərimə və ya iki ilədək həbs olunacaq.

**Sosial fəallıq vacibdir...**

Məlumdur ki, erkən evliliklər cəmiyyətimizdə aktuallığını itirməyən problemlərdən biridir. Hələ də övladını erkən evliliyə məcbur edən valideynlər var. Xüsusilə qız uşaqlarının 15-16 yaşda ərə verilməsi günümüzün acı reallıqlarındandır. Əlbəttə, bu kimi hallara qarşı müvafiq qanunvericilik var. Ancaq yenə də belə halların baş verməsinin şahidi oluruq. Çünki övladını erkən yaşda evliliyə sürükləyən valideynlər adətən bu işin gizli baş tutmasına can atırlar. Belə məqamda isə cəmiyyət olaraq hər birimiz üzərinə düşən ümumi bir vəzifə var. Bu da sosial fəallıq göstərib təhsildən yayındırılan, erkən evliliyə məcbur edilərək hüquq və azadlıqlarından məhrum edilənlər barədə aidiyyəti qurumları xəbərdar etməkdir. Etiraf edək ki, adətən insanların böyük əksəriyyəti "ailə məsələsidir" deyib yaxalarını kənara çəkirlər. Ancaq bu addım yüzlərlə, minlərlə qızın təhsildən yayınmasına, bir növ hüquq və azadlığından məhrum edilməsinə yol açır.



## Hər birimiz sosial fəallıq göstərməliyik!

**Bəlkə bu hal çoxlarına ibrət olar...**

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən sosioloq-alim Əhməd Qəşəmoğlu hər iki Məcəlləyə edilən dəyişikliyi müsbət qiymətləndirib. Onun sözlərinə görə, valideynlərin əksəriyyəti övladını erkən nikaha məcbur edərkən şəxsi arqumentlərini əsas gətirərək özlərini müdafiə edirlər: "Onların fikrincə, əgər uşağı oxutmayacaqsa, buna imkanı yoxdursa, tez ərə versə, yaxşı olacaq. Digər tərəfdən, insanlar indi mənəvi tərəfdən başqa dəyərlərə üstünlük verir. Daha çox təhsilə və dünya görüşünə üstünlük verilsəydi, bunların heç biri yaşanmazdı. Cinayət Məcəlləsinə övladlarını erkən evliliyə sövq edən valideynlərin həbsi ilə bağlı maddə əlavə edilməsini sonuna qədər dəstəkləyirəm. Bəlkə bu hal çoxlarına ibrət olar. Nikah yaşının 1 il azaldılmasına yol verilən halın aradan qaldırılması da düzgün və yerində atılmış addımdır. Çünki sui-istifadə halları çox olurdu".

**Hər kəs qanun qarşısında cavab verməlidir**

Sosioloqun sözlərinə görə, Ailə və Cinayət Məcəlləsinə dəyişiklik edildi, əlavələr oldu, ancaq bu işdə vətəndaş olaraq hər birimizin məsuliyyəti var: "Çox gözəl ki, Məcəlləyə sözügedən dəyişikliklər edilsə də, erkən nikahlarla bağlı problemlər yenə yaşana bilər. Hər zamankı kimi, bəziləri gizli şəkildə erkən nikahlara şərait yarada bilərlər. Amma cəmiyyət olaraq buna yol verməməliyik. Vətəndaş olaraq hər birimiz bu mövzuda sosial fəallıq nümunəsi sərgiləməliyik. İstər qohum, istər qonşu fərq etməz, erkən nikahlara yol verən hər kəsin qanun qarşısında cavab verməsi vacibdir. Bunun üçün aidiyyəti qurumları zamanında məlumatlandırmaq hər birimizin borcudur. Belə bir sosial fəallıq göstərsək, neçə-neçə qızlarımızın hüquqlarını müdafiə etmiş olarıq".

*Yeganə BAYRAMOVA*

# Qərbin sülh "demarşı"...

## İsveçrə konfransı effektiv olacaqmı?

Bu həftəsonu İsveçrədə keçirilməsi nəzərdə tutulan "Qlobal sülh sammiti" iki ildən artıqdır ki, dünyanın əsas diqqət mərkəzində olan Rusiya-Ukrayna məsələsinə həsr ediləcək. Tədbir ilk baxışdan sülhə və təhlükəsizliyə hədəflənən kimi görünsə də, əslində, ortada mühüm çatışmazlıqlar mövcuddur. Xüsusilə, ortada olan Qərb nəzarəti və ya Qərb "təşəbbüskarlığı" bu konfransın birtərəfli mahiyyətindən xəbər verir. Başqa sözlə, dialoq əvəzinə daha çox "Qərbin monoloqu"na şahid olacaq bu konfransın bölgəyə sülh gətirəcəyinə inam yox səviyyəsindədir.

Xatırladaq ki, konfransın keçirilməsi ilə bağlı təklif ötən ilin sonu, bu ilin əvvəlində Ukrayna prezidenti Volodimir Zelenski tərəfindən səsləndirilmişdi. İsveçrə Konfederasiyasının prezidenti Viola Amherd Zelenskinin İsveçrədən yüksək səviyyəli sülh konfransı təşkilini xahiş etdiyini demişdi. Rəsmi Bern isə bu istəyə müsbət cavab vermişdi - sadəcə olaraq, effektivlik baxımından sülh prosesi ilə bağlı ilk addım sayılan konfransda bütün tərəflərin iştirakı labüd idi.

## Rusiya dəvətli deyil, Səudiyyə Ərəbistanı isə imtina edir

İyunun 15-16-da İsveçrənin Bürgenstok kurortunda baş tutacaq konfransa 160-dan çox nümayəndə heyəti, o cümlədən G7, G20 və BRICS ölkələri dəvət ediliblər. Rusiya bu görüşə dəvət olunanlar arasında yoxdur. Bununla bağlı Rusiyanın Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedyev bildirib ki, rəsmi Moskva İsveçrənin təşəbbüsündən "üç qat fayda" alacaq. O sosial şəbəkələrdə yazdığı postda bildirib ki, birincisi, konfrans Zelenskinin qondarma sülh planının iflasına daha bir sübut olacaq. Hətta Rusiyanın keçmiş prezidenti Ukraynanın indiki prezidentinin soyadını kiçik hərflə yazmaqla kifayətlənməyib, həm də onu təhqir edib. Medvedyevin sözlərinə görə, bu konfrans həm də ABŞ başda olmaqla kollektiv Qərbin, indiki Qərb elitasının iqtidarsızlığının sübutu olacaq. Üçüncüsü, isə eks-prezidentin fikrincə, konfrans RF ordusuna öz fəaliyyətini davam etdirməyə imkan verəcək".

Rusiyadan başqa bir sıra ölkələr də tədbirdə iştirak etməməklə bağlı rəsmi mövqeyini açıqlayıb. Məsələn, Səudiyyə Ərəbistanı da sülh konfransına öz nümayəndələrini göndərməmək qərarına gəlib. Bu barədə Almaniya mətbuatı yazıb. Onların sözlərinə görə, Rusiya sammitdə iştirak etməyəcəyi üçün Ər-Riyad bu qərarı verib. Bundan əvvəl Səudiyyə Ərəbistanı Çinlə Ukraynadakı müharibə ilə bağlı danışıqlar aparıb. Hər iki ölkənin nümayəndələri belə qənaətə gəliblər ki, məsələnin həlli bütün tərəflərin iştirakı və müxtəlif təkliflərin ortaya qoyulması ilə müzakirə edilməlidir. Qeyd edək ki, bu qərar açıqlanmamışdan öncə, Ukrayna prezidentinin Səudiyyə Ərəbistanına rəsmi səfər etməyi planlaşdırmışdı. Lakin Ər-Riyadın mövqeyinə görə Zelenski Səudiyyə Ərəbistanına səfərini İsveçrədəki konfransdan sonraya təxirə salıb.

## ABŞ gəlir, Çin "yox" deyir...

ABŞ nümayəndə heyəti isə İsveçrədə keçiriləcək Sülh Sammitində iştirak edəcək. Bu barədə "Reuters" amerikalı rəsmiyə istinadən bildirib. Agentliyin məlumatına görə, ABŞ administrasiyasının nümayəndələri iyunun 15-16-da İsveçrənin Bürgenstok şəhərində Ukrayna üzrə keçiriləcək konfransda iştirak edəcəklər. Bundan əvvəl Ukrayna prezidenti Volodimir Zelenski sammitdə Sülh Formulunun on bəndindən yalnız üçünü müzakirəyə qoyacağını bildirib. Onun sözlərinə görə, bir çox dövlətlər balanslı mövqe tutur və mürəkkəb məsələləri Rusiya tərəfinin iştirakı olmadan həll etmək istəmir. Bununla əlaqədar olaraq Ukrayna lideri fikir ayrılığına səbəb olan bəndləri çıxarmaq qərarına gəldiyini açıqlayıb.

Çin isə digər ölkələrin hökumətlərinə Ukrayna ilə bağlı İsveçrə konfransında iştirak etmək niyyətində olmadığını bildirib. "Reuters" üç mənbəyə istinadən məlumat yayıb - Pekin dəvəti rədd edib, çünki onun iştirak şərtləri yerinə yetirilməyib", - məlumatda deyilir.



## İkili standart - Azərbaycanla bağlı konfrans niyə çağırılmadı?

Kollektiv Qərbin Ukrayna-Rusiya münaqişəsi ilə bağlı bu aktivliyi isə bir məsələni xüsusilə aktuallışdırır - bu, özünü "vasitəçi" və ya "tənzimləyici" kimi önə sürən dövlətlərin qeyri-səmimi davranışından, korporativ maraqlardan və ikili yanaşma standartından xəbər verir. Məsələn, cəmisi iki illik tarixə malik bir münaqişənin bu kimi geniş platformada və xüsusi hal kimi müzakirəsi maraqlı bir sual yaradır - görəsən, 30 ildən yuxarı davam etmiş Ermənistanın Azərbaycana təcavüzü dövründə niyə bu kimi tədbirlər reallaşmırdı? Niyə kollektiv Qərb bizim torpaqlarımız işğal altında olan zaman belə konfrans təşkil etmirdi? Halbuki, real mexanizm belə vardı - münaqişənin həlli ilə bağlı ATƏT-in Minsk qrupunun moderatorluğu ilə Minsk konfransı təşkil olunmalıydı. Hansı ki, həmin Minsk Qrupu regiona turistik səfərləri ilə işlərini bitmiş sayırdılar. Amma Qərb bu addımı atmadı və həmin dövrdəki status-kvonu qorumağa çalışdı. Amma bu "qarovulçuluq" da öz bəhrəsini vermədi - Azərbaycan münaqişənin həllinin modelini yaratdı, hərbi siyasi vasitələrdən istifadə etməklə özünün ərazi bütövlüyünü, suverenliyini təmin etdi. Necə deyərlər, bu qədər danışmaqdansa, əməl daha effektivdir...

## Tamam, yoxsa davam...

Məsələnin alt qatına diqqət yetirdikdə İsveçrə rəsmiləri bildirirlər ki, konfransın məqsədi gələcəkdə Rusiyanı da əhatə etmək və davamlı sülh danışıqlarının əsasını qoymaqdır. Amma indiki halda, bu formatla sülhə nail olunması faktı o qədər də inandırıcı görünmür. Ortada obyektiv və subyektiv səbəblər mövcuddur. Siyasi ekspertlərin fikrincə, bu konfransın sülhə xidmət etməyəcəyini göstərən ilkin amil həmin tədbirdə iştirak edəcək əksər dövlətlərin məhz "ittihamçı" rolunda çıxış etmək arzusundan irəli gəlir. Nəzərə alsaq ki, bu dövlətlərin mütləq əksəriyyəti son dövrlərdə Ukraynanın Rusiyaya qarşı verilən silahlardan istifadəsinə razılıq vermiş ölkələrdir, səmimi sülh prosesinin inkişafı inandırıcı görünmür.

Digər tərəfdən, sülh çağırışlarının real fəaliyyətə transferi üçün kənar maraqlar məhz kənara qoyulmalıdır - siyasi analitiklərin düşüncəsinə görə isə İsveçrə konfransı sırf kənar maraqların təmini, gələcək "iqtisadi imkanlar torunu", eyni zamanda, artıq bir müddətdir ki, müzakirə mövzusuna çevrilmiş Rusiyanın dondurulmuş aktivlərinin gəlirləri ilə bağlı məsələlərə "həsr olunacaq". Beləliklə, sülh prosesinin doğulmadan ölməsi faktı ilkin mərhələdə reallaşa bilər...

*P.İSMAYILOV*

# İnflyasiyanı 2 dəfə azaltmaq hədəfi

## Türkiyə hökuməti sərt pul siyasətini davam etdirəcək

Türkiyə hökuməti ölkənin iqtisadi-sosial inkişafında əsas qayğılardan biri olan yüksək qiymət artımları ilə mübarizəni genişləndirmək üçün əlavə tədbirlərdən istifadə etməyi düşünür. Qardaş ölkənin Mərkəzi Bankının (MB) rəhbəri Fatih Karahan bildirib ki, inflyasiya ilə mübarizədə inzibati alətlərdən istifadə ön planda qalacaq. 2024-cü il üçün makroiqtisadi hədəflərlə bağlı açıqlama verən baş bankir bildirib ki, inflyasiya azalana qədər dövlətin müdaxiləsi ilə sərt pul siyasəti davam etdiriləcək. MB heyətində qiymət artımında rol oynayan xarici faktorlara və qlobal risklərə baxmayaraq, inflyasiyanın azalmağa doğru davam edəcəyinə dair ümidverici əhval-ruhiyyə də hiss olunur. Belə ki, F.Karahan inamla mövcud 74 faizlik inflyasiya göstəricisinin 2 dəfə endirilməsinin mümkünlüyünü və 2024-cü ilin sonuna kimi 36 faizə düşmüş inflyasiyanın proqnozlaşdırıldığını xatırladıb.

Prezident Rəcəb Tayyib Ərdoğan 12-ci İqtisadi İnkişaf Planı çərçivəsində ölkənin əsas hədəf prioritetlərindən biri kimi inflyasiyanın azalması istiqamətində hökumətin koordinasiyalı fəaliyyətinin artırılacağını bildirib. Ortamüddətli inkişaf proqramı çərçivəsində müəyyən edilmiş anti-inflyasiya tədbirlərinə əsasən, cari ilin ikinci yarısından etibarən qiymət indeksinin azaldılması istiqamətində məqsədli addımlar atılacaq.




Qeyd edək ki, Türkiyədə aprel və may ayları üzrə inflyasiya göstəriciləri hələ də yüksək olaraq qalmaqdadır. Ancaq ölkənin xarici ticarətin dinamikasında yaxşılaşma və cari tədiyə balansındakı dinamika qiymət indeksinin azaldılması ilə bağlı nikbinliyi artırır. 2024-cü ilin yanvar-may aylarında Türkiyənin xarici ticarət dövriyyəsinin həcmi 250 milyard 588 milyon dollara çatıb. Belə ki, ixrac 4,5 faiz artaraq 106 milyard 914 milyon dollar, idxal isə 9,3 faiz azalaraq 143 milyard 674 milyon dollar təşkil edib. Təkcə may ayında ixrac 11,4 faiz artaraq 24 milyard 75 milyon dollar olub. Yəni ölkənin ixrac potensialı hər ay artmaqla tədiyyə balansının da yaxşılaşmasına öz təsirlərini göstərməkdədir. Eləcə də ötən 5 ayda ölkə iqtisadiyyatı 5 faizə yaxın böyümə nümayiş etdirib, ÜDM-in real artımı 4,9 faiz təşkil edib. Ölkənin sabit maliyyə yığımları da artıb, ehtiyatlarda artım qeydə alınıb. Bu isə maliyyə sabitliyinin təmin edilməsi üçün müsbət tendensiya deməkdir. Maliyyə naziri Məhmət Şimşək bildirib ki, ölkə iqtisadiyyatı üçün ən pis dövr arxada qalıb və iyun ayından sonra deinflyasiya prosesinə daxil olur.

Türkiyə Mərkəzi Bankı inflyasiyanın qarşısını almaq və ölkə iqtisadiyyatını sabitləşdirmək üçün uçot dərəcəsini də davamlı olaraq artırır. Hazırda ölkədə uçot faiz dərəcəsi 50 faizə qədər yüksəldilib ki, bu da cari ilin yanvarına nisbətən 5 faiz artım deməkdir. Türkiyənin vitse-prezidenti Cevdət Yılmaz bildirib ki, inflyasiya narahatlığı uçot dərəcəsinin artımını da labüd edir, bu proses bank və maliyyə sektorları, kreditlər üçün çətinliklər yaratsa da uçot dərəcəsinin artımının davam etdirilməsi anti-inflyasiya strategiyası çərçivəsində saxlanılacaq.

Qardaş ölkədəki maliyyə sabitliyinin zəifləməsində siyasi faktorun rolu az deyil, Son illərdə dolların sürətlə bahalaşmasında valyuta bazarındakı süni spekulyasiyaların təsiri az olmayıb, ölkənin valyuta birjalarına müdaxilədə yerli və xarici bank-maliyyə təmsilçilərinin də rolu az deyil. R.T. Ərdoğanın “təpəçilər” (sələmçilər) dediyi qrupun Türk Lirəsinin ucuzlaşması üçün məqsədli şəkildə dollar ajiotajı yaratdığına dair kifayət qədər sübutlar var. Türkiyə Mərkəzi Bankının (TMB) dollar-TL məzənnəsini müəyyən etdikdən sonra “qara bazarda” 20-25 faizlə valyuta satışları da buna dəlalət edir. Bazar iştirakçıları, biznes qrupları süni dollar ajiotajı mühitində daha çox dollar almaq istəyir ki, bu da tələbi artırır, banklar və valyuta birjası dollar və avroya tələbi tam qarşılaya bilmədiyindən kiçik və orta biznesin bir qismi “qara bazar”a üz tutmalı olurlar. Bazardakı həmin spekulyatorlar da məqsədli şəkildə sələmçilərin (“təpəçilər”) sayəsində TL-nin dəyərsizləşməsinə səbəb olur.

Ancaq bütün bunlara baxmayaraq, Türkiyədə yerli valyutanın ucuzlaşması, inflyasiyanın artmasında real iqtisadi mühit, ölkənin tədiyyə balansının cari vəziyyəti də əsaslı amillərdən biridir. Yuxarıda da vurğuladıq ki, tədiyyə balansı yaxşılaşır, maliyyə göstəriciləri ümidvericidir. Xüsusilə də hazırda yay fəslində turizm sektorundakı canlanma ilə bağlı ölkəyə on milyard dollarlarla xarici valyuta daxil olacaq, 2024-cü ildə milli müdafiə və avtomobil sənayesinin ixracında xüsusi çəkisinin artması gözlənilir. Eyni zamanda, ötən il kəşf edilmiş qaz yataqlarında hasilat işlərinə başlanılması və qaz sənayesinin inkişafı, digər sahələrdə inkişaf templəri əhəmiyyətli iqtisadi artıma yol açacaq.

Türkiyə Mərkəzi Bankının bir müddət əvvəl biznes icması arasında keçirdiyi sorğuya qatılan bazar iştirakçıları tərəfindən verilmiş cavablar da qiymət indeksinin aşağıya doğru istiqamətlənəcəyinə ümidləri artırır. Sorğuda iştirak edən maliyyə sektorunun 53 üzvü, o cümlədən 30 bank, həmçinin real sektorun 17 nümayəndəsi bildirib ki, cari təqvim ilinin sonunda inflyasiya orta hesabla 36-44 faiz təşkil edə bilər. Eyni zamanda, qarşıdakı iki il ərzində qiymət artımının 22,6 faizə enəcəyinə dair gözləntilər öz əksini tapıb. Nəticədə sorğu iştirakçılarının 50 faizdən çoxu illik perspektivdə inflyasiyanın müsbətə doğru dəyişəcəyinə inanır.

*E.Cəfərli*

# “Fransada əsl siyasi zəlzələ baş verdi”

## Viktor Orban hesab edir ki, Avropada “sülh partiyaları” qələbə qazanıb

*N.BAYRAMLI*

Avropa Parlamentinə (AP) seçkilərin başa çatmasından sonra Avropa İttifaqına (Aİ) üzv olan bir çox ölkədə ifrat sağçıların yüksəlişi seçkinin ən diqqət çəkən elementi olub. Ötən bazar günü gecə Avropada seçki marafonu başa çatdığından Aİ-nin 27 üzvü arasında qalib və məğlubların kim olduğu aydınlaşmağa başlayıb. Məsələn, Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen bazar günü etdiyi çıxışda deyib ki, nəticələr onun mənsub olduğu Avropa Xalq Partiyasının (EPP) hələ də “sabitlik lövbəri” kimi fəaliyyət göstərə biləcəyini təsdiqləyir. Ancaq o, öz siyasi müttəfiqlərini də “ekstremist” partiyalara qarşı duruş gətirməkdən ötrü köməyə çağırıb. EPP keçən seçkilərdə olduğu kimi bu dəfə də Avropa Parlamentində ən çox yerə sahib olacaq.

Avropa Parlamentinə seçkilərin nəticələri ilə bağlı Macarıstanın Baş naziri Viktor Orbanın fikirləri maraq doğurur. Orban hesab edir ki, Avropada “sülh partiyaları” qalib gəlib. “M1” telekanalına müsahibəsində ultrasağçı Avropa partiyalarının mövqelərini gücləndirdiyi Avropa Parlamenti seçkilərinin nəticələrini şərh edən Macarıstanın Baş naziri bu seçkilərin Avropada “müharibəyə sürüklənməni” ləngitmək və ya dayandırmaq üçün bir fürsət olduğu qənaətindədir. “Planlaşdırdığımız, istədiyimiz baş verdi, bu qatar yavaşladı, amma onu dayandırmaq da olar. Çünki müharibəni ən qətiyyətlə müdafiə edən ölkə olan Fransada əsl siyasi zəlzələ baş verdi. Yəni Fransada siyasi yüksəliş başladı, ona görə də sülh partiyalarının əksəriyyəti qalib gəldi”, - deyə Orban bildirib.

Macarıstan hökumətinin başçısı gözləyir ki, “Tramp ABŞ-da hakimiyyətlərin digər yarısını devirəcək və bundan sonra sülh olacaq”. Orban əlavə edib: “Həmin iki yarını barışdıra bilməsək, o zaman təzliklə sona qədər müharibə aparacağıq. Biz müharibə və sülh məsələsinə nəzarət etməliyik, çünki buraya qərq olsaq, onda hər şey üzə çıxacaq”. Orban Macarıstanda 57 faiz seçici fəallığının macar demokratiyasının canlı olduğunu göstərdiyini deyib və 44,6 faiz səsvermənı Avropada ən yüksək dəstək hesab edib.



Orbanın FIDES partiyası Avropa Parlamenti seçkilərində 44,6 faiz səs toplayıb və bu, indiyə qədər olan ən pis nəticədir. Hakim partiya yalnız 2004-cü ildə - Macarıstan Avropa Birliyinə üzv olduqdan sonra Avropa Parlamentinə keçirilən ilk seçkilərdə (47,4 faiz) səslərin yarıdan azını toplayıb. FIDES Avropa Parlamentində 11 yer qazanıb ki, bu da son seçkilərdə olduğundan iki yer azdır. Eyni zamanda, müxalif siyasi qüvvə olan TISSA-ya rəhbərlik edən FIDES-in keçmiş üzvü Piter Maqyarın partiyası 30,1 faiz səs toplayıb ki, bu da gözləniləndən xeyli yüksəkdir. O, son 14 ildə Macarıstanın hər hansı müxalifət partiyasından daha yaxşı nəticələr əldə edib. Maqyar hakim partiyanın nəticələrinin aşağı düşməsini “bir dövrün sonu” adlandırıb. TISSA Avropa Parlamentində də yeddi yer qazanıb.



Fransada ifrat sağçı “Milli Birlik” partiyası qalib gəlib. Onun nəticəsi (31,5 faiz) Prezident Emmanuel Makronun “İntibah” partiyasının daxil olduğu “Besoin d’Europe” koalisiyasından (14,5 faiz) təxminən iki dəfə yüksəkdir. İlkin nəticələrdən sonra Makron Milli Assambleyanın buraxıldığını bildirib və 30 iyun və 7 iyul tarixlərinə növbədənkənar seçkilər təyin edib. O deyib: “Bu qərar ciddi, çətin, lakin hər şeydən əvvəl etimad aktıdır”. Belə bir vəziyyətdə ilk olaraq Makronun 2017-ci il mayın 7-də - prezident seçkilərində birinci qalibiyyəti zamanı verdiyi vəd yada düşür. Xatırladaq ki, o, həmin vaxt ifrat radikal siyasətçilərə səs verməməsi üçün seçicilərə heç bir tutarlı səs verməyəcəyinə və içmişdi. İndi isə ekstremist baxışları ilə tanınan Le Penin partiyası ilə yanaşı, daha bir müxalif qüvvənin - “Respublikaçılar” partiyasının lideri Erik Syotti keçirilən seçkilərin nəticələrini “makronizmin” iflası kimi xarakterizə edib.

Almaniyaya gəlincə, ifrat sağçı “Almaniya üçün Alternativ” partiyası da seçkilərdə öz mövqeyini möhkəmləndirərək rekord səviyyədə - 15,6 faiz səs toplayıb və bu, ona Avropa Parlamentində 15 yer qazandırıb. Bütövlükdə isə, Avropa Parlamentinə bu dəfəki seçkilərinin nəticələri bəzi Aİ ölkələrində gözlənilməz qarşılanır. Bu da həmin ölkələrin, ümumilikdə, Aİ-nin yürütdüyü siyasətin məntiqi yekunudur.

# Makron istefa verəcəkmi?

**Fransanın zamanında bütün dünya üçün yeni çağırışlar olan ənənələrinin və bəyan etdiyi insan haqları, bərabərlik, qardaşlıq kimi dəyərlərin öz əhəmiyyətini itirdiyinin şahidi oluruq. Prezident Emmanuel Makronun qurduğu hökumət Fransanın ənənələri və dəyərlərindən uzaq olan bir siyasət həyata keçirir. Bunun da nəticəsidir ki, hazırda bu ölkə tarixinin ən miskin dönəmini yaşayır və Yelisey Sarayı həm ölkə daxilində, həm də xaricdə nüfuzunu getdikcə itirir.**

## Çoxdan gözlənilən istefa xəbəri

Bu günlərdə Fransadan çoxdan gözlənilən xəbər gəldi. Söhbət prezident E.Makronun mümkün istefasından gedir. Onun komandası ilə parlament seçkilərində sağçıların qalib gələcəyi təqdirdə dövlət başçısı vəzifəsindən istefa vermək imkanının müzakirələrini apardığı bildirilir. Bu barədə “Avropa 1” (“Europe 1”) radiostansiyası mənbəyə istinadən məlumat yayıb. “Prezidentin istefası tabu deyil. Bəli, bu gün biz bütün ssenariləri nəzərdən keçirməliyik. O, beş illik səlahiyyət müddətinin sonunu qurban verməyə hazırdır”, - deyə Makronun yaxın adamlarından birinin sözlərinə istinadla yayılan məlumatda vurğulanıb.

Xatırladaq ki, E.Makron Fransada ilk dəfə 2017-ci ilin may seçkilərinin qalibi olmaqla dövlət başçısı kürsüsünə əyləşib. O, həmçinin 2022-ci il aprel seçkilərinin qalibi olub. Fransanın 25-ci prezidenti seçilən E.Makron Yelisey Sarayına 40 yaşında sahiblənib və Fransanın tarixinə ən gənc dövlət başçısı kimi düşüb. Ancaq E.Makron ölkə hakimiyyətinə gənclik enerjisi və xüsusi bir dinamizm gətirə bilməyib. Məhz onun prezidentliyi dönəmində Fransanın daxili və xarici siyasətində uğursuzluq mərhələsi başlayıb. Prezident çox doğru olaraq hər bir ölkənin rəmzlərindən biri sayılır. E.Makron Fransanın necə rəmzidir ki, müxtəlif auditoriyalarda səsi batırılır, tez-tez yumurta atəşinə tutulur və s.

E.Makronun hələlik ehtimal edilən, əslində isə Fransa üçün bir zərurətə çevrilən istefasını şərtləndirən çoxsaylı səbəblər sadalamaq mümkündür. Qeyd edək ki, E.Makronun prezidentlik vəzifəsindən istefası xəbəri onun rəhbərlik etdiyi partiyanın bu günlərdə Avropa Parlamentinə (AP) baş tutan seçkilərdə məğlubiyyətə uğraması fonunda gündəmə gəlib. Məlumdur ki, Avropa İttifaqının (Aİ) ali qanunverici orqanına seçkilərdə sağ mərkəzçi qrup səs çoxluğu qazanıb. 2024-2029-cu illər çağırışı üzrə AP-ə seçkilər qurumun üzvü olan bütün ölkələrdə baş tutub. Seçkilərin nəticələrinə görə, AP-də sağ-mərkəzçi qrup olan Avropa Xalq Partiyası (AXP - EPP) Aİ üzvü olan 27 ölkədə üstün olub və 720 yerdən 191-ni qazanıb. İkinci yerdə 135 mandat əldə edən, bir qədər zəifləmiş sol-mərkəzçi qrup, 83 mandatla geriləyən “Yenilənmə” liberal qrupu isə üçüncü yerdə gəlir. Daha 95 yeri fraksiyalara daxil olmayan, müstəqil deputatlar tutacaqlar.

Fransada Marin Le Penin sədri olduğu “Milli Birlik” Partiyasından Cordan Bardelanın başçılıq etdiyi namizədlər seçkilərdə mütləq qələbə qazanıblar. “IPSOS”-un keçirdiyi sorğunun nəticələrinə görə, AP-yə seçkilərdə fransızların 45,26 faizi iştirak edib. AP-yə seçkilərin



nəticələri ilk növbədə onun sübutudur ki, Fransada E.Makrona etimad çox zəifdir və onun siyasəti iflasa uğrayıb.

Diqqətçəkən əsas məqamlardan biri ondan ibarətdir ki, Yelisey Sarayının Makronun rəhbərliyi ilə apardığı siyasət həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda davamlı etirazlarla qarşılanır. Cari ilin əvvəlindən bəri Fransada ciddi hökumət böhranı yaşanır. Baş nazir və hökumətin ayrı-ayrı üzvləri vəzifələrindən kənarlaşdırılıb. Onların yerini tutanlar da hər hansı bir uğura imza ata bilməyiblər. Hökumət böhranını yaradan isə Yelisey Srayının siyasətidir. Fransa mətbuatında yer alan məlumatlardan aydın olur ki, hökumət böhranı ilk növbədə Makron iqtidarının apardığı qeyri-ardıcıl və sərtşəsiz siyasətə görə yaşanır. Bir müddət bundan əvvəl E.Makronun yeni pensiya islahatı təşəbbüsü bütün ölkəni tətillər dalğasına bürümüşdü. Həmkarlar ittifaqları təşkilatları Fransanın hər yerində tətilə qoşulanlara dəstək verirdi. Son vaxtlarda isə Fransada Makron hökumətinin “sahibkarların xərc yükünün artırılması” siyasətinə qarşı daxili etirazların geniş dalğası başlayıb. Ayrı-ayrı əyalətlərdə fermerlər hökumət əleyhinə müxtəlif aksiyalar keçirirlər. Ölkəni bürüyən “peyin inqilabı” Fransanın imicinə ciddi zərbə vurub. Bu günlərdə Yelisey Sarayı üçün növbəti bəd xəbər “Standard & Poor’s” reytinq agentliyindən gəlib. Qurum mayın 31-də yaydığı son hesabatında Fransanın büdcə vəziyyətinin pisləşdiyini elan edib və onun kredit reytinqini aşağı salıb...

Eyni zamanda, Makron hakimiyyəti dönəmində keçmiş və hazırkı müstəmləkə ölkələrində Fransaya qarşı etirazların daha güclü dalğası start götürüb. Getdikcə daha çox ölkədə Fransanın rəmzlərinə hörmətsizlik göstərilir, “Rədd ol, Fransa!” şüarları səsləndirilir. Son olaraq Makron hökumətinin Yeni Kaledoniyada həyata keçirmək istədiyi konstitusiya “islahatları” ciddi etirazlarla qarşılanıb. Bundan başqa, Əlcəzair Fransadan zamanında oğurladığı tarixi-mədəni sərvətləri geri qaytarmağı tələb edir. Həmçinin ayrı-ayrı keçmiş müstəmləkə ölkələri Makron hökumətinin qarşısında təzminat ödənilməsi tələblərini qoyublar. Sual olunur: Belə yarıtmaz siyasət müqabilində Makronun Yelisey Sarayına sahiblənmək haqqı çatırmı?

*MÜBARİZ*

## İflasa uğrayan siyasət və yaxud Makronun istefasını şərtləndirən amillər

# İran prezidentliyinə namizədlər...

## 6 siyasətçi post uğrunda mübarizə aparacaq

İranda iyunun 28-də keçiriləcək prezident seçkilərində mübarizə aparacaq namizədlərin adları bəlli olub. Nəzarət Şurası İran parlamentinin sədri Məhəmməd Baqir Qalibafı, Tehran meri Əlirza Zəkanini, Səid Cəlilini, prokuror və keçmiş ədliyyə naziri Mustafa Purməhəmmədini, parlament sədrinin keçmiş müavini Əmir Hüseyn Qazizadə-Haşimini və parlament üzvü Məsud Pezeşkianı prezidentliyə namizəd olaraq müəyyən edib.

Xatırladaq ki, İranda prezident olmaq üçün mübarizəyə 80 iddiaçı namizədliyini irəli sürmüşdü. Onlardan 12-si isə qadın idi. Bu qadınların arasında ən məşhuru Zöhrə İlahian sayılırdı. O da prezidentliyə namizədlərin adları açıqlanmazdan bir gün əvvəl iddiasından imtina edib. 80 namizəd arasında isə adları çəkilən şəxslərin namizədliyi qeydə alınıb.

### Ən şanslı namizəd...

Namizədliyi qeydə alınan və prezidentliyə ən real namizəd hazırkı İran parlamentinin sədri Məhəmməd Bağır Qalibaf sayılır. SEPAH-a yaxın adam kimi tanınan Məhəmməd Bağır Qalibaf 1961-ci ildə İranın Xorasan vilayətinin Torqab ərazisində dünyaya gəlib. 2005-ci ildən 2017-ci ilə qədər Tehran şəhərinin meri olan Qalibaf bundan əvvəl 2000-2005-ci illərdə İranın polis rəisi və 1997-2000-ci illərdə İnqilab Keşikçiləri Qvardiyasının Hərbi Hava Qüvvələrinin komandanı olub. Tarbiat Modares Universitetinin Siyasi Coğrafiya fakültəsinin elmlər namizədi elmi dərəcəsini qazanmış və həmin Universitetin professoru olan Qalibaf həm də sertifikatlı pilotdur. O, hərbi karyerasına 1980-ci ildə İran-İraq müharibəsi zamanı başlayıb. O, 1982-ci ildə İmam Rza briqadasının baş komandiri olub və 1983-1984-cü illərdə Nəsr diviziyasının baş komandiri olub. Müharibə başa çatdıqdan sonra o, 1996-cı ildə İslam İnqilabı Keşikçiləri Korpusunun nəzarətində olan və SEPAH Hərbi Hava Qüvvələrinin komandiri Əli Xamenei tərəfindən təyin edilmiş "Xatəm əl-Ənbiya" mühəndislik firmasının icraçı direktoru işləyib. Dörd il sonra isə İran polisinə rəhbər gətirilib - 1999-cu ildə tələbə etirazlarından sonra əvvəlki rəisin çıxarılması Qalibaf üçün tramplin olub. Qalibaf 2005-ci il və 2013-cü il seçkilərində də namizəd kimi iştirak edib. 2017-ci ildə isə seçkiyə qatılsa da, sonradan geri çəkilib. 2020-ci ildən İran parlamentinin üzvü və rəhbəridir. O bu vəzifədə hazırkı prezidentlik uğrunda mübarizəyə qatılmağa hazırlaşan Əli Laricanini əvəzləyib.




### Köhnə prokuror, yeni nümayəndə...

Prezidentliyə namizəd Səid Cəlili isə 1965-ci ildə Məşhəd şəhərində doğulub. İranın Ali Rəhbərinin Ali Milli Təhlükəsizlik Şurasındakı nümayəndəsidir. Tehranın İmam Sadiq Universitetində təhsil alan və siyasi elmlər üzrə fəlsəfə doktoru olan Cəlili İran-İraq müharibəsi zamanı İslam İnqilabı Keşikçiləri Korpusunda xidmət edib. O, İranın Ali Rəhbərinin aparat rəhbəri, daha sonra Avropa və Amerika üzrə xarici işlər nazirinin müavini vəzifələrində çalışıb.

1960-cı ildə Qum şəhərində anadan olmuş Mustafa Purməhəmmədi isə Nazirlər Kabinetində müxtəlif vəzifələrdə çalışıb. Purməhəmmədi 2005-2008-ci illərdə İranın daxili işlər naziri, 2013-2017-ci illərdə isə ədliyyə naziri postunu tutub. Qumdakı Haqqani Seminariyasında İslam fiqhi, fiqh prinsipləri və fəlsəfə sahəsində təhsil alıb. Daha sonra Məşhəd, Qum və Tehranda təhsilini davam etdirib. Fəlsəfə doktoru dərəcəsinə bərabər olan hüquq və İslam hüququ üzrə dördüncü səviyyəli dərəcəyə malikdir.

Mustafa Purməhəmmədi 1979-1986-cı illərdə Bəndər Abbas, Kirmanşah və Məşhəddə İnqilab Məhkəməsinin prokuroru olub. 1986-cı ildə Qərb Bölgələri Silahlı Qüvvələrinin İnqilab Məhkəməsində prokuror vəzifəsində çalışıb. 1987-ci ildə Əli Əkbər Haşimi Rəfsəncaninin hakimiyyəti dövründə o zamankı Kəşfiyyat Naziri Höccətülislam Əli Fallahyanın yanında kəşfiyyat nazirinin müavini təyin edilib. O, həm də əks-kəşfiyyatın direktoru olub. 1997-1998-ci illərdə Purməhəmmədi xarici siyasət departamentinin direktoru vəzifəsində çalışıb.

2013-cü il prezident seçkilərində namizədliyini irəli sürən Purməhəmmədi sonradan Manuçehr Mottakinin xeyrinə namizədliyini geri götürüb. Seçilmiş prezident Həsən Ruhani isə onu ədliyyə naziri vəzifəsinə təqdim edib.

### Tehran meri də mübarizəyə qoşulub

Digər namizəd Əlirza Zəkani isə 1966-cı ildə Rey şəhərində dünyaya gəlib. Mühafizəkar qanadın təmsilçisi və Tehranın hazırkı meri olan Zəkani 2004-2016, 2020-2021-ci illərdə İslam Məsləhət Şurasının üzvü olub. "Jahan News" və "Panjereh Weekly" vebsaytlarının sahibidir.

O, iki dəfə 2013 və 2017-ci illərdə ölkə prezidenti postuna namizədliyini irəli sürsə də, Nəzarət Şurası tərəfindən təsdiqlənməmişdi. 2021-ci ildə keçirilən seçkilərdə namizədliyi qeydə alınsa da, mərhum prezident İbrahim Rəisinin xeyrinə namizədliyini geri götürmüşdü. Qeyd edək ki, Zəkaninin ana babası Şərqi Azərbaycan vilayətinin Təbriz şəhərindədir. O, İranın tanınmış şəxslərindən olan Hüseyn Zəkaninin oğludur. Zəkani Tehranın meri təyin edildikdən sonra bir sıra mühüm addımları ilə gündəmə gəlib, hətta onun ilə bağlı məhkəmə prosesi də baş tutub.

### Ermənilərə etiraz edən azərbaycanlı namizəd...

Seyyid Əmir-Hüseyn Qazizadə Haşimi 1971-ci ildə anadan olub. Mühafizəkar siyasətçi hesab edilən Haşimi ixtisasca həkimdir. Eyni zamanda, Haşimi İran Əfqan və Şəhidlər Fondunun hazırkı vitse-prezidentidir. O, 2008-2021-ci illərdə İran parlamentində Məşhəd və Kalat seçki dairəsini təmsil edib. Haşimi İslam İnqilabı Sabitlik Cəbhəsinin üzvü olub və partiyanın sözçüsü vəzifəsində çalışıb.

Namizədlər arasında yeganə islahatçı qanad təmsilçisi sayılan və milliyyətcə azərbaycanlı olan Məsud Pezeşkiyan isə 1954-cü il Təbriz doğumludur. İran Parlamenti sədrinin birinci müavini və Təbrizi təmsil edən deputatı olub. Xocalı soyqırımının 27-ci ildönümündə Ermənistan baş naziri Nikol Paşinyanın Tehrana səfəri zamanı qaldırılan əsassız şüara etiraz edən şəxslərdən biri olub.

Xatəminin hakimiyyəti illərində səhiyyə naziri işləyib. 2013-cü ildə prezidentliyə namizədliyini açıqlasa da, daha sonra Əkbər Haşimi Rəfsəncaninin qeydə alınması səbəbindən namizədliyini geri götürüb. O, həmçinin prezident seçkiləri üçün 2021-ci ildə namizədliyini irəli sürüb, lakin Mühafizə Şurası onun məqsədəmüvafiqliyini təsdiq etməyib.

***SADİQ***

# İrəvanda növbədənkənar sessiya baş tutacaq?

## Müxalifət Paşinyanı devirmək istəyir

***Nardar BAYRAMLI***

Ermənistanda baş nazir Nikol Paşinyanı devirmək istəyən qüvvələr 9 iyun mitinqindən sonra İrəvanda oturaq aksiya keçirir. Bu aksiyalara rəhbərlik edən "Vətən naminə Tavuş" hərəkatının rəhbəri, keşiş Baqrat Qalstanyan etirazçıları ərazini tərk etməməyə, hakimiyyət dəyişikliyinə nail olana qədər "mübariz" olmağa çağırıb. "Bu gecə o qədər çox insan var ki, əminəm ki, onlar nə qədər vaxt lazımdırsa, orada qalacaqlar. Hamıya xəbər verirsiniz ki, burada söz verilib və bəli, bu məsələni həll edəcəyik, gözəl həll edəcəyik. Burada qalacağıq, çadırlar, maşınlar olacaq. Mən də burada qalacağam, siz də mütləq qalacaqsınız. Biz heç yerə getməyəcəyik", - deyə Qalstanyan müraciətində bildirib. O, 9 iyunda mitinqdə hakimiyyət üçün "sürprizlər" olacağını vəd etsə də, buna nail olmadı. Baqrat indi də həmin "sürprizi" növbəti günlərlə əvəzləyib.

Keşiş, həmin mitinqdə sadəcə olaraq, gələcək planlar haqqında məlumat verməklə kifayətlənib. Onun planlarına iyunun 11-də saat 16:30-da hökumətin istefasını gündəmə gətirmək üçün parlamentin müxalifətçi deputatları ilə görüş keçirilməsi, parlamentdən növbədənkənar sessiyanın keçirilməsi barədə qərar qəbul etmək tələbi və parlamentin növbədənkənar iclasında hazırkı hökumətin istefasını və yeni hökumətin formalaşdırılmasını gündəmə gətirmək daxildir.

Ermənistan qanunvericiliyinə uyğun olaraq müxalifəti təmsil edən "Hayastan" və "Şərəfim var" fraksiyaları hökumətin istefası tələbi ilə parlamentə müraciət ünvanlayıb. Müraciətdə iddia olunur ki, Ermənistanın suverenliyi təhdid altındadır: "Hazırkı hakimiyyət ölkənin müdafiəsini, təhlükəsizliyini, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığını təmin edə bilmir. Ermənistan rəhbərliyi siyasi razılığa əsasən sarsıntısız və sülh yolu ilə peşəkar, nüfuzlu və səriştəli insanlar tərəfindən ələ keçirilməlidir". Ermənistan konstitusiyasının 100-cü maddəsinə əsasən parlament deputatların belə bir təşəbbüsünü müzakirəyə çıxarmalıdır. Spiker Alen Simonyan qanuna əsasən "Hökumətin istefası və yeni hökumətin formalaşdırılması zərurəti haqqında" sərəncam imzalayıb. Sərəncama əsasən 17 iyunda saat 18:30-da Ermənistan parlamentinin növbədənkənar sessiyası keçiriləcək.



Lakin parlamentdə çoxluq təşkil edən hakim partiyanın növbədənkənar sessiyanı boykot edəcəyi gözlənilir. "Hraparak" yazır ki, hakim "Mülki müqavilə" fraksiyası sessiyada iştirak etməmək qərarına gəlib: "İştirak etməyəcəkləri təqdirdə yetərsay olmadığı üçün iclas keçirilməyəcək". Artıq hakim "Mülki müqavilə" partiyasını təmsil edən bəzi deputatlar sözügedən sessiyada iştirak etməyəcəklərini bildiriblər.

Müxalifətin parlamentin buraxılması tələbinə gəlincə, bu da real görünmür. "Ermənistan" fraksiyasının katibi Artsvik Minasyan deyib ki, müxalifət ölkənin baş naziri Nikol Paşinyan seçkiqabağı dövrdə hökumət başçısı vəzifəsini icra etməsə, deputat mandatlarından imtina etməyə hazırdır: "Hakimiyyət bizə deyir ki, mandatlarınızdan imtina edin, erkən seçkilərə gedək! Bu problem deyil, amma onlar da imtina etsinlər. Həm biz, həm də onlar". Spiker Alen Simonyan jurnalistlərə açıqlamasında deyib ki, Ermənistan hakimiyyəti küçə etirazları fonunda növbədənkənar parlament seçkiləri keçirməyə hazırlaşmır. Onun sözlərinə görə, bu məsələ müzakirə mövzusu deyil: "Biz bu məsələni müzakirə etməmişik və müzakirə etmək niyyətində deyilik".

Qeyd edək ki, hökumətin istefası və Nikol Paşinyanın impiçmenti təklifi Baqrat Qalstanyanın rəhbərlik etdiyi hərəkatın son kartlarından biridir. Keşiş hakimiyyətə ictimai təzyiqləri davam etdirməyə çalışır və tərəfdarlarını iyunun 12-də parlamentin yaxınlığına toplaşmağa çağırıb. Hakim partiyanın deputatları isə iyunun 17-də keçiriləcək növbədənkənar sessiyanı boykot etməklə bu imkan da müxalifətin əlindən alınacaq.

Qeyd edək ki, II Qareginin xeyir-duası ilə aksiyalara başlayan Baqrat keçmiş prezident Robert Köçəryanla da bir neçə dəfə görüşərək ondan "məsləhətlər" alıb. Bir neçə gün əvvəl isə keşiş Ermənistanın üçüncü prezidenti Serj Sarkisyanla da görüşüb. "Hraparak" qəzetinin məlumatına görə, görüşdə keşiş Baqrat Sarkisyandan mübarizəsinə dəstək istəyib. "Qalstanyan hərəkatın gələcək taktikasının nədən ibarət olmasından, xüsusən də hər zaman parlamentdə baş nazirin impiçmentinin tərəfdarı olduğundan, lakin indi küçə təzyiqinin artması yolunu tutduğundan danışıb. Sarkisyan isə bildirib ki, onun rəhbərlik etdiyi "Respublika" partiyası hərəkata dəstək verib, respublikaçılardan ibarət ayrı-ayrı qruplar vaxtaşırı Kirantsa gedib-gəliblər. Eks-prezident gələcək hakimiyyət sistemində yer tutmaq fikrində olmadığını da deyib və bildirib ki, əsas odur, ölkə Paşinyanın hakimiyyətindən qurtulsun", - deyə məlumatda qeyd olunub. Əgər iyunun 17-də müxalifət hökumətin istefasına nail olmasa, keşiş Baqratın başçılıq etdiyi hərəkat da süqut edəcək.

# Hindular necə təslim oldular

İngilislər Amerika qitəsini işğal etdikdən sonra yerli xalqları zorla özlərinə tabe etməyə, onların torpaqlarını və sərvətlərini yağmalamağa başladılar. Yerli əhali ilə son dərəcə amansız rəftar olunurdu. Hindular sayca çox olsalar da, cəbbəxanalarında odlu silah olmadığına, ən əsası, birləşə bilmədiklərinə görə uduzurdular.



Şimali Amerikada ingilislərin Virciniya, Merilend, Şimali və Cənubi Karolina, Corciya adlı koloniyaları yaradıldı. Hindulardan zor və hiylə yolu ilə alınmış torpaqlar hesabına Atlantik okeanı sahillərində 13 ingilis koloniyası salındı.

XVII əsrdə ingilis-hindu müharibələri nəticəsində hinduların bir qismi fiziki cəhətdən məhv edildi, soyqırımına məruz qaldı, digər qismi isə Qərbə tərəf sıxışdırıldı. Hindu qırğınları tarixdə avropalılar tərəfindən törədilmiş ən dəhşətli soyqırımlarından biridir.

XVII əsrdə Amerikaya köçən avropalıların çoxu ingilislər olsa da, bəzi koloniyalarda hollandlar, isveçlilər, almanlar da məskunlaşmışdı.

Avropalı işğalçılara qarşı mübarizə aparan hindu tayfalarının, demək olar ki, hamısı son nəticədə məğlub oldu. Cəsur hindular müasir texnika qarşısında yenilsələr də, düşmənə qarşı son nəfəsinə qədər dirənənlər də çox oldu. Bu yazıda real şəxsiyyətlər olan döyüşkən tayfa başçılarından bir neçəsi barədə söz açacağıq.



Tekumze, İti Burun, Filipp, Pontiak, Qara Quzğun, Qarğıdalıçı və başqaları kimi liderlər öz adını qızıl qanı ilə tarixə yazanlardır. Bu şəxslər əsrlər boyu davam edən Amerika-Hindu müharibələri zamanı öz cəsurluqlarına görə məşhurlaşıblar. Təslim olmayan tayfa liderləri ya döyüşlərdə öldürülür, ya da əsir götürülərək edam edilirdi.

Beləliklə, bütün müharibələrdə olduğu kimi sonda həmişə sülh gəlir. 19-cu əsrin sonunda yerli amerikalılar avropalıların işğalına qarşı müqaviməti tədricən səngitdilər, onların mübarizəsi yerini narahat sülhə verdi.

Bəs sonda təslim olub məcburi sülh müqaviləsi bağlayan tayfa başçılarının axırı necə oldu?

**Nizənin tüfəngə uduzması**

Ağ dərili işğalçılarla vuruşması ilə tanınan Koçiz (1805-1874), dalana dirəndikdən sonra 1872-ci ildə danışıqlara getməyə məcbur oldu. O, sonradan rezervasiyaya (təslim olan hindu rəhbərləri üçün xüsusi düşərgə) göndərildi və iki ildən sonra orada vəfat etdi.



Onun dağlıq ərazidəki məzarını etibarlı yoldaşları gizli saxlayıblar. Döyüş şücaətləri və əsirlikdən qaçıb qurtulması ilə şöhrət tapan Yağış Üzlü (1835-1905) həlledici atışmaların birində general Kasterin kiçik qardaşının ürəyini çıxarması ilə əfsanələşmişdi. O, 1880-ci ilə qədər Kanadaya sığınmış, sonra ABŞ-a qayıdaraq ölənə qədər rezervasiyada yaşamışdı.

Ən cəsur tayfa liderlərindən olan Qırmızı Bulud (1822-1909) ağlarla sonuncu döyüşə girməkdən imtina etmiş, öz şərtlərini irəli sürməklə bir neçə sülh müqaviləsi bağlamışdı. O da ömrünün son illərini rezervasiyada yaşamış, orada da vəfat etmişdi. Qırmızı Buludun son sözləri Vaşinqtonun siyasətinə qarşı itaətsizlik və nifrətlə dolu idi.

Həm hərbi istedadı, həm də diplomatik qabiliyyəti ilə tanınan Xallı Əlik (1826-1890) 1890-cı ildə Yaralı Diz soyqırımında qətlə yetirilib. Faciədən az əvvəl ağlara təslim olan Xallı Əlik qəbiləsinin döyüşdən imtina etdiyini elan etsə də, ingilislər onu və tayfasını yer üzündən sildilər. Döyüşlərdə fiziki şücaəti və cəsarətinə görə xüsusi hörmət qazanan Toxunan Bulud (1838-1905) da son müharibə zamanı avropalı istilaçılara təslim olan başçılardan biri idi. O, ömrünün sonlarında xristianlığı qəbul etmiş, 1905-ci ildə rezervasiyada ölmüşdü.

**Hindunun şərəfi**

Amerika tarixinin ən əfsanəvi liderlərindən olan Ceronimo (1829-1909) barışmaz rəqib, yenilməz döyüşçü idi. Nüfuzlu bir apaçi şefi kimi o, həm amerikalıların, həm də meksikalıların qorxulu yuxusu sayılırdı. Heç vaxt ələ keçməyən cəsur dəstə başçısı, nəhayət, 1886-cı ildə təslim olmaq məcburiyyətində qaldı. O, həyatının qalan hissəsini əsirlikdə keçirməyə məhkum olundu. Ceronimonu antikvar əşya kimi müxtəlif tədbirlərdə, yarmarkalarda nümayiş etdirirdilər. O, hindu simvolları və aksessuarları düzəldir, onları istəyənlərin geyimlərinə, papaqlarına bəzək kimi əlavə edirdi. Bu bacarığı sayəsində yarmarka iştirakçılarının səbirsizliklə gözlədiyi qiymətli "Ceronimo" günləri meydana gəldi. Fotoqraflar onun müxtəlif geyimlərdə şəkillərini çəkir, qəzetlər Ceronimonu qeyri-adi insan kimi təqdim edirdilər.

Ömrü boyu nəzarət altında olmasına baxmayaraq, Ceronimo imkan daxilində azadlığını təmin etməyə çalışırdı. Hətta bəzi hallarda buna nail olurdu da.

Yaşlı vaxtında ağ ciyər iltihabı onun ölümünü sürətləndirdi. Deyilənə görə, o, ömrünün son saatlarında təslim olmaq qərarından peşmanlığını dilə gətirmiş, ingilislərlə mübarizədən imtina etdiyinə görə özünü bağışlaya bilmədiyini demişdi.

Qorxmazlığı ilə tanınan Dəli At (1840-1877) tayfasına müxtəlif dərəcəli uğurlar qazandıran çoxsaylı müharibələr aparıb. Onun hərbi nailiyyətlərini təbiətcə riski sevməsi ilə əlaqələndirirlər. Dəli At əla döyüşçü olmaqdan əlavə həm də ruhani lider kimi böyük nüfuza malik idi. O, istilaçı ağlar üçün böyük təhlükə yaradırdı. Münaqişəni davam etdirməyin mənasız olduğunu anlayan tayfa başçısı, nəhayət, 1877-ci ildə üzvləri getdikcə azalan qəbiləsini qorumaq üçün təslim olur. Bir müddət sonra əsirlikdən qaçmaq istəyən Dəli Atı keşikçilər yaxalayır və bıçaqlayıb öldürürlər.

Kapitan Cek (1837-1873) kimi tanınan Kintpuaş danışıqlar zamanı işğalçı ingilis nümayəndələrin qətli ilə nəticələnən amansız mübarizəsinə görə şöhrət qazanıb. Kintpuaş cinayətlərinə görə ingilislər tərəfindən mühakimə edilmiş və onun asılmasına qərar verilmişdi. O, edam edilməzdən öncə adını tarixə yazdıran bir sıra geyimləri nümayiş etdirməklə qeyri-adi fotosessiya çəkdirmişdi.

Ovçuluq məharəti ilə seçilən Tək Buynuz (1790-1877) qocalığı ilə əlaqədar müharibədən çəkilmiş və dinc həyatda dünyasını dəyişmişdi. Onun oğlu Spotted Elk sülhə sadiq qalacağını bildirsə də, öldürülmüşdü.

Kiçik Bighorn döyüşünün iştirakçısı, Yaralı Diz Soyqırımından sağ çıxan Qara Əlik (1863-1950) Qırmızı Buludun vasitəçiliyi ilə təslim olmuşdu. O, dini ayinlər icra edir, eləcə də təbib kimi xidmət göstərirdi. Onun övladları xristian kimi vəftiz olunsalar da, Qara Əlik ömrünün axırına kimi doğma inancından dönməmişdi.

***Murad Köhnəqala***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Xoşbəxt uşaqlığı dadmayanlar...

**Məlumdur ki, Uşaq Hüquqları Konvensiyasına əsasən, uşaq əməyinin istismarı qadağandır. Buna baxmayaraq, dünyada elə ölkələr var ki, oradakı zavodlarda, fabriklərdə və fermer təsərrüfatlarında uşaq əməyindən istifadə edilir. Milyonlarla uşaq dünyanın bir çox ölkəsində xoşbəxt uşaqlığın nə olduğunu bilmir. Onlar ölkələrinin iqtisadiyyatı zəif olduğu üçün işləməyə məcburdurlar. Lakin dünyanın hər bir yerində uşaqlar öz enerjilərini fərdi bilik və bacarıqların artırılmasına yönəltməlidirlər. Əməyi istismar edilən uşaq gələcək arzu və istəklərindən məhrum olur...**

## Uşaq Əməyinə Qarşı Mübarizə Günüdür

### Qorxunc statistika...

Bu gün iqtisadiyyatı zəif olan ölkələrdə 250 milyondan çox azyaşlı uşaq işləyir. Beynəlxalq təşkilatların məlumatlarına görə, dünyada uşaq əməyinin istismarına Asiya ölkələrində 153 milyon, Afrikada 80 milyon, Cənubi Amerika ölkələrində isə 17 milyona qədər azyaşlı uşaq məruz qalır. Həmin uşaqlar dözülməz şəraitdə işlədilir və bir çox hallarda onlar öz sağlamlıqlarını itirirlər. Əksər hallarda azyaşlılar hərbi konfliktlərə cəlb edilirlər.



### İlk yeri bu ölkə tutur

Uşaq əməyinin istismarı hallarının 69 faizi kənd təsərrüfatı sahəsinin payına düşür. Uşaqlar bu sahədə əsasən tütün, pambıq, düyü və kakao yığımında istifadə olunurlar. Myanma uşaq əməyinin istismarına görə ilk yeri tutur.

Bundan başqa Hindistan, Braziliya, Banqladeş, Filippin, Nepal, Somali, Şimali Koreya, Şri-Lanka, Əfqanıstan da bu siyahıya daxildir.

### Uşaqların 40 faizi təhsil ala bilmir...

Myanmada 7 yaşına çatmış hər üç uşaqdan biri işləyir. Bu uşaqlar çox ağır işlərdə çalışırlar. Yaxın günlərə qədər uşaq əməyi hərbi sahədə də istifadə edilirdi. Uşaqlar orduda təmizlik işləri və yük daşımaqla məşğul olurdular.

Bundan başqa, uşaqlardan canlı sipər kimi də istifadə olunur. Ancaq beynəlxalq təşkilatların təzyiqindən sonra Myanma uşaq əməyini yüngülləşdirməyə məcbur edilib. İndi bu ölkədə uşaqlar yalnız tikinti sahəsində çalışırlar. Tikinti sahəsində 8 yaşlı qız uşaqları 20 kiloqramlıq sementlə dolu qabları daşımağa məcbur edilirlər. Onlar bu sahədə əsasən ailəvi çalışırlar və əmək haqları da valideynlərə verilir. İşləmək məcburiyyəti bu ölkədə azyaşlı uşaqların 40 faizini təhsil almaq imkanından məhrum edib. Əgər azyaşlı uşaqlar valideynləri tərəfindən başqa ölkəyə satılırsa, belə uşaqlar şanslı uşaqlar sayılırlar.

### 12 saat uşaq əməyinə görə 1.7 dollar...

Hindistanda uşaq əməyindən qızıl mədənlərində, kakao yığımında və paltarların tikilməsində istifadə edilir. Bu ölkədə kasıb ailələr öz uşaqlarını 5 yaşından qul kimi satırlar. Banqladeşdə 18 yaşına qədər insanların 18 faizi günü 1 dollara yaşamağa məcburdur. Bu ölkədə 12 saat uşaq əməyinə görə 1.7 dollar pul verilir.

Dünyanın lider istehsalçıları da uşaq əməyindən istifadə edirlər. Hindistanın "Monsanta" korporasiyasını və Çinin "Peqatron Group" kompaniyasını buna misal göstərmək olar.

### 2025-ci ilədək...

Qeyd edək ki, iyunun 12-si Ümumdünya Uşaq Əməyinə Qarşı Mübarizə Günü kimi qeyd edilir. Beynəlxalq Əmək Təşkilatı tərəfindən ilk dəfə 2002-ci ildən qeyd edilən bu günün məqsədi cəmiyyətin diqqətini mövcud problemə yönəltmək və uşaq əməyinin ləğvinə nail olmaqdır. BMT-nin Davamlı İnkişaf Məqsədlərinin hədəfləri sırasında 2025-ci ilədək uşaq əməyinin bütün formalarının ləğv edilməsi xüsusi yer alır.

Ölkəmiz Beynəlxalq Əmək Təşkilatının "İşə qəbul olunmaq üçün minimum yaş həddi haqqında", eləcə də "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" Konvensiyalarını ratifikasiya edib. Bundan başqa, qanunvericiliyimizdə 15 yaşdan aşağı uşaqların işləməsinə icazə verilmir.

***Yeganə BAYRAMOVA***



# "Bakcell"in dəstəyi ilə "Google AI Hackathon" baş tutub

## Bakcell-in rəsmi sponsorluğu və Tech Academy-nin təşkilatçılığı ilə Azərbaycanda ilk dəfə "Google AI Hackathon" baş tutub.

IDDA-nın ev sahibliyi etdiyi innovasiya və yüksək texnologiyaları təmsil edən tədbir, yaradıcı beyinləri, süni intellekt həvəskarlarını, developer və proqramçıları bir araya toplayıb. Google-ın möhtəşəm Sİ platforması olan "Gemini"dən istifadə edərək yenilikçi həllər tapmağa çalışan 21 komanda 2 gün ərzində qalibiyyət üçün yarışıb.

"Bu möhtəşəm tədbirin Bakıda keçirilməsi Azərbaycanın texnologiya sahəsindəki liderliyini və innovasiyaya olan dəstəyimizi təmsil edir. Komandaların nümayiş etdirdikləri yaradıcılıq və istedad həqiqətən ilhamverici idi. Bugünkü tədbiri dəstəklədiyimiz kimi, Azərbaycanın parlaq gənclərinin də hər zaman yanındayıq." deyə Bakcell-in Baş İcraçı Direktoru Klaus Müller bildirib.

Bakcell əməkdaşının da təmsil etdiyi münsiflər heyətinin qərarına əsasən 2-ci günün sonunda hakatonun qalibləri təyin olunub. "CODAGE" adlı komanda 1-ciliyə layiq görülərək 3000 AZN, 2-ci yeri tutan "JOSUA VERSE" komandası 2000 AZN, "LİBRA VƏ SPARK" komandası isə 3-cülüklə 1000 AZN dəyərində pul mükafatı qazanıblar.

## *İdman*

### Azərbaycanın U-19 millisinin baş məşqçisi: İkinci yer bizim üçün yaxşı nəticədir

Komandanın oyunlarından razı qaldım. İkinci yer bizim üçün yaxşı nəticədir.

Bunu "Report"a açıqlamasında Azərbaycanın 19 yaşadək (U-19) oğlanlardan ibarət millisinin baş məşqçisi Elxan Abdullayev Moldovada təşkil edilən yoldaşlıq turniri ilə bağlı fikirlərini bölüşərkən deyib.

O, turnirdə məqsədlərinin yaxşı oyun sərgiləmək olduğunu söyləyib: "Turnirdə ikinci olduq. Türkiyə millisi bizdən 1 yaş böyük uşaqlarla çıxış edirdi. Yəni U-20 idi, heyətdə 2005 təvəllüdlü futbolçular oynayırdı. Bundan əlavə, Türkiyə elit-raundu keçən komandadır. Qarşıda onları Fransa, İspaniya və Danimarka ilə qrup oyunları gözləyir. Ona görə də yarışın favoriti sayılırdılar. Yəni bizimlə eyni səviyyədə olan rəqib deyil. Məqsədimiz sırf Türkiyə millisini udmaq deyil, yaxşı futbol göstərmək idi. Nəticə də çox önəmlidir. Bir ildən çoxdur beynəlxalq oyunlarda çıxış etmirdik. Noyabrdakı yarışa hazırlaşırıq. Moldova millisi də rəqibimiz olacaq. Mənfi və ya müsbət tərəflər var idi. Bu yaşda olan komandada çatışmazlıqlar çox olur. Çox işləmək, irəli baxmaq lazımdır. Futbolçular üçün böyük təcrübədir. Fikrimcə, çox yaxşı turnir idi. Belə turnirlər nə qədər çox olsa, millimiz və futbolçularımız üçün bir o qədər müsbət hal sayılır".



Baş məşqçi noyabra qədər daha 3 toplanış nəzərdə tutulduğunu vurğulayıb: "Avqust, sentyabr və oktyabr aylarında təlim-məşq toplanışı olacaq. Hələ ki, rəqiblərimiz bəlli deyil, kimlərlə, hansı turnirdə oynayacağımıza qərar verməmişik".

Qeyd edək ki, U-19 turnirdəki ilk iki matçında Qazaxıstan yığmasına 2:0 hesabı ilə qalib gəlib, Türkiyə millisinə məğlub olub - 0:5. Komanda sonuncu görüşdə Moldova ilə heç-heçə oynayıb - 1:1.

### 2024/2025 mövsümündə Azərbaycan liqalarında istifadə olunacaq toplar müəyyənləşib

2024/2025 mövsümündə Azərbaycan liqalarında istifadə olunacaq toplar müəyyənləşib.

"Report" Peşəkar Futbol Liqasının mətbuat xidmətinə istinadən xəbər verir ki, qurum və klublar arasındakı razılaşmaya əsasən, qarşıdakı mövsümdə Azərbaycan Premyer Liqası və Əvəzedicilər Liqasında çıxış edəcək komandaların üzvləri "Adidas" şirkətinin istehsal etdiyi, 2024-cü il Avropa çempionatının rəsmi topu olan "Fussballiebe"dən yararlanacaqlar.




Azərbaycan I Liqasında mübarizə aparan klublar "Adidas" şirkətinin təsis etdiyi "Al Rihla", II Liqada çıxış edən klublar isə eyni şirkətin istehsalı olan "Adidas Tiro Pro"dan istifadə edəcəklər.

### Karateçilərimiz Gürcüstanda 3 medal qazanıblar

Azərbaycan karateçiləri Gürcüstanın paytaxtı Tbilisidə keçirilən "Open Georgia" beynəlxalq turnirində 3 medal qazanıblar.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən "Report"un yerli bürosuna verilən məlumata görə, turnirdə Azərbaycanı 6 idmançı təmsil edib.

"Qapıçıq" klubunun üzvləri ölkəmizin aktivinə 1 qızıl, 2 gümüş medal əlavə etdiriblər. Kumite yarışlarında iştirak edən Xədicə Bayramova (30 kq) 10-11 yaş kateqoriyasında rəqiblərini üstələyərək qızıl medal qazanıb. Nərgiz Həsənli (61 k) 14-15 yaş kateqoriyasında ikinci olub. Kata yarışlarında iştirak edən Kənan Qənbərov (+55 kq) isə 12-13 yaşlılar arasında ikinci yeri tutub.

Qeyd edək ki, iki gün ərzində keçirilən yarışda 9 yaş kateqoriyasında müxtəlif çəki dərəcələri üzrə idmançılar iştirak edib.






# "Nar"ın əsas tərəfdaşlığı ilə "Balloon Festival" keçirilib

"Nar"ın əsas tərəfdaşlığı ilə bu yayın ən çox gözlənilən tədbirlərindən biri olan "Balloon Festival" yekunlaşıb. İyunun 8-9-da Şamaxı rayonunda keçirilən festivalda 20 mindən çox ziyarətçi iştirak edib.

Sərfəli təkliflərini regionlara daha da yaxın etmək məqsədinə sadiq qalan "Nar" festival zamanı müştərilərinin üstün xidmətlərə asan çıxışını təmin edib. Əsas tərəfdaş olaraq, "Nar" qonaqların səmada hava şarlarından, o cümlədən mobil operatorun brendini əks etdirən hava şarının uçuş mənzərəsindən həzz alması üçün rahat və canlı atmosferin yaradılmasına öz töhfəsini verib. Həmçinin, festival boyunca iştirakçıları maraqlı sürprizlərlə sevindirən "Nar" onlara müxtəlif dəyərli hədiyyələr də təqdim edib.

Qeyd edək ki, milli irsin qorunub saxlanması və daha geniş miqyasda nümayiş etdirilməsi "Nar"ın əsas strateji istiqamətlərindəndir. Regionlarda əhəmiyyətli tədbirlərə dəstək verməklə "Nar" turistlər arasında Azərbaycanın ecazkar təbiətinə və zəngin mədəniyyətinə marağı artırır.

"Nar" festivalları, musiqi və idman tədbirlərini müştərilərinə daha da yaxın edərək onlar üçün maraqlı istirahət imkanları yaradır. "Nar"ın dəstəyi ilə həyata keçirilən layihələr haqqında ətraflı məlumatı nar.az saytından əldə etmək mümkündür.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5682**
**Sifariş: 1306**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova